

Milli azadlıqdan
şirin nemət yoxdur!

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

06 sentyabr
2024-cü il,
cümə
№ 162 (6748)
Qiyməti
60 qəpik

# İlham Əliyev Romada işgüzar səfərdə...



Bax səh. 2

# "Yaşıl iqtisadiyyat"ın üstünlükləri...

Bax səh. 3



## Milli rəqəmsal reytinq...

Bax səh. 3

## QHT-lər adından "orden" və "medal" təqdim edənlərə xəbərdarlıq...

Bax səh. 5




## İcma: Fransanın insan hüquqlarından danışmağa haqqı yoxdur

Bax səh. 4

# Fakt və sübut: Ermənistan konstitusiyası legitim deyil

## Qarabağ separatçıları ədalət mühakiməsində...

2023-cü ilin sentyabrında baş tutan antiterror tədbirləri 30 ildən artıq davam etmiş haqsızlığa son qoydu. Azərbaycanın suverenliyinin bərpa edilməsi ilə yanaşı, həm də illərlə regionda separatizm yayan cinayətkarlar ədalət mühakiməsi qarşısına çıxarıldılar. Xatırladaq ki, 24 saatlıq antiterror tədbirləri nəticəsində Azərbaycanın hüquq-mühafizə orqanları Qarabağda separatçı rejimə rəhbərlik etmiş Arkadi Qukasyan, Bako...

Bax səh. 4

## Əsasnaməni təsdiqlədi...

Ermənistan hökuməti Azərbaycanla sərhədin delimitasiyası üzrə komissiyalar haqqında Əsasnamənin ratifikasiyasını təsdiqləyib. Bununla bağlı qərar layihəsində qeyd olunur ki, əsasnamə delimitasiya işlərinin təşkilini və müvafiq sənədlərin qəbulunu, dövlət sərhədinin kəsişməsinin protokol-təsvirinin tərtibini, müvafiq miqyaslı delimitasiya xəritəsinin tərtibini, ekspert qruplarının işini nəzərdə tutur. Əsasnamə və onun əsasında qəbul ediləcək sənədlər delimitasiya işlərinin gedişatının təmin edilməsinin hüquqi əsaslarını...

Bax səh. 5

## "Dönüş nöqtəsi"ndən 100 illiyə...

Xəbər verildiyi kimi, sentyabrın 4-də Misir prezidenti Əbdülfəttah əs-Sisi Türkiyəyə səfər edib. Səfər bir sıra xüsusiyyətlərinə görə, mühüm əhəmiyyət daşıyır. Ən əsası isə Əbdülfəttah əs-Sisi 12 ildən sonra Ankaranı ziyarət edən Misir prezidenti oldu.

Qeyd edək ki, Türkiyə Cümhuriyyəti ilə Misir arasında ilk müasir diplomatik əlaqələr 1925-ci ildə qurulub. Buna qədər yüz illər ərzində Misir Osmanlı...

Bax səh. 6

## Tarix təkrarlanacaqmı?

İki ildən çoxdur ki, davam edən Rusiya - Ukrayna müharibəsinin sonu görünmür. Hər ötən gün isə müharibə yeni faciələrə səbəb olur - tərəflərin canlı qüvvə və texnika itkisi artır, dağılan yaşayış məntəqələrinin coğrafiyası genişlənir. Əvvəllər yalnız Ukrayna ərazisində dinc sakinlər doğma ev eşiklərini tərk etmək məcburiyyətində qalırdılarsa, artıq Rusiya ərazisində də insanlar eyni problemlə üzləşirlər. Həmçinin müharibə uzandıqca yeni təhdidlər meydana çıxır.

Müharibədə...

Bax səh. 7

## Qondarma "Milli şura"nın fəaliyyəti qeyri-qanunidir

Ənənəvi olaraq hər seçkidən sonra özünün absurd iddiaları və "bəyanatları" ilə yadda qalan bəzi amorf təşkilatlar yenə də öz ampluasındadır. Xarici korporativ maraqların ölkə daxilindəki "dəyənəyi" kimi çıxış edən bu "qüvvələr" yenə də eyni havanı çalır - qorxaraq geri çəkildiyi, özünün gücsüzlüyünün ortaya çıxacağından ehtiyatlanaraq qatılmadığı...

Bax səh. 6



## Qəzzada atəşkəs mesajları...

Bax səh. 5



## Makrona Yelisey Sarayının qapısı göstərilir...

Bax səh. 7



# İlham Əliyev Romada işgüzar səfərdə...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın dəvəti ilə sentyabrın 4-də Romaya işgüzar səfərə gəlib.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 5-də İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birgə işçi naharı olub.

AZƏRTAC xəbər verir ki, İtaliya Prezidenti Sercio Mattarella dövlətimizin başçısını qarşılayıb.

Sercio Mattarella dövlətimizin başçısına prezident seçkilərində qələbəsi münasibətilə bir daha təbriklərini çatdırıb.

O, Azərbaycanla İtaliya arasında münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını, ölkəmizin İtaliyanın yaxın tərəfdaşı olduğunu deyərək, 2020-ci ildə Prezident İlham Əliyevin İtaliyaya dövlət səfəri zamanı imzalanmış strateji tərəfdaşlığa dair Birgə Bəyannamənin önəmini vurğulayıb.

Sercio Mattarella özünün Azərbaycana səfərini məmnunluqla xatırlayıb.

Son dörd ildə İtaliyaya üç dəfə səfər etdiyini deyən dövlətimizin başçısı münasibətlərimizin strateji tərəfdaşlıq xarakteri daşıdığını, İtaliya-Azərbaycan əlaqələrinin özündə çoxşaxəli əməkdaşlığı ehtiva etdiyini vurğulayıb, İtaliyanın Avropada Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu qeyd edib. Bu xüsusda, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlığın vacibliyi, o cümlədən TAP layihəsinin əhəmiyyəti vurğulanıb. Bu gün TAP layihəsinin həm İtaliyanın, həm də Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı mühüm rola toxunularaq, hazırda bu layihənin Avropanın 10 ölkəsinin enerji təchizatındakı vacib rolu qeyd olunub.

Söhbət zamanı humanitar və mədəni əlaqələrin önəminə toxunulub, ADA Universiteti ilə İtaliyanın beş universiteti arasında birgə layihə çərçivəsində yaradılan İtaliya-Azərbaycan Universitetinin fəaliyyəti qeyd edilib. Burada təhsil alan tələbələrin gələcəkdə ölkələrimiz arasında dostluğun elçiləri olacaqlarına və münasibətlərimizin inkişafına töhfə verəcəklərinə əminlik bildirilib.

İtaliya-Azərbaycan Universitetinin yaradılmasının böyük əhəmiyyət daşıdığını deyən Sercio Mattarella bunun ölkələrimiz arasında humanitar və insanlararası əlaqələrin inkişafında mühüm rol oynadığını vurğulayıb.

İtaliya Prezidenti COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, bunun çox əhəmiyyətli tədbir olduğunu söyləyib və ölkəsinin COP29-da yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunacağını bildirib. İtaliyanın COP29-un Azərbaycanda uğurla keçirilməsi üçün bütün lazımi dəstəyi göstərməyə hazır olduğunu qeyd edən Sercio Mattarella COP29-la əlaqədar İtaliyanın iqlim dəyişikliyi üzrə nümayəndəsinin Azərbaycanla yaxından əməkdaşlıq etdiyini vurğulayıb.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev qeyd edib ki, COP29-un Azərbaycanda keçirilməsi beynəlxalq ictimaiyyətin ölkəmizə olan yekdil dəstəyinin ifadəsi, eyni zamanda, ölkəmizə olan etimadın göstəricisidir. Dövlətimizin başçısı COP29 - beynəlxalq iqlim dəyişikliyi məsələlərində Azərbaycanın İtaliya ilə birgə əməkdaşlığa hazır olduğunu bildirib.

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan 2019-2023-cü illərdə Qoşulmama Hərəkatının sədri, hazırda isə üzvü kimi Qlobal Cənubun bir hissəsidir, Qərb, o cümlədən Avropa ilə sıx əlaqələri mövcuddur. Dövlətimizin başçısı Azərbaycanın COP çərçivəsində də iqlim məsələləri üzrə həmrəyliyin təşviq edilməsi istiqamətində səy göstərəcəyini vurğulayıb.

Prezident Sercio Mattarella ölkəsinin Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsinə və inkişafına daim dəstək göstərdiyini deyərək, İtaliyanın regionda sülh gündəliyini dəstəklədiyini qeyd edib.

Dövlətimizin başçısı Avropa İttifaqının Azərbaycanla əsas ticarət tərəfdaşlarından biri olduğunu vurğulayıb və Avropa İttifaqı ilə Azərbaycan arasında yaxşı əlaqələrin mövcud

## İtaliya regionda sülh gündəliyini dəstəkləyir



olduğunu deyib. Bununla belə, dövlətimizin başçısı təəssüflə qeyd edib ki, bəzi Avropa ölkələri bu əlaqələrin inkişafına maneə yaradırlar. Regionda sülh gündəliyinə toxunan Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması təşəbbüsünün, bu müqavilənin əsasını təşkil edən prinsiplərin, eyni zamanda, Cənubi Qafqazda regional əməkdaşlıq layihələrinin təşəbbüskarının da məhz ölkəmiz olduğunu vurğulayıb.

Dövlətimizin başçısı sərhədlərin delimitasiyası və demarkasiyası prosesində ciddi nailiyyətlərin əldə edildiyini, ikitərəfli xarakter daşıyan bu proses çərçivəsində artıq 12 kilometrdən çox sərhədyanı ərazinin həm də demarkasiya olunduğunu, 1990-cı illərin əvvəllərindən işğal altında olan 4 Azərbaycan kəndinin də ölkəmizin nəzarətinə qaytarıldığını bildirib. Dövlətimizin başçısı buna baxmayaraq Ermənistanın konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının hələ də mövcud olduğunu qeyd edərək, Ermənistanda müvafiq konstitusiya dəyişdirilməsi prosesi vasitəsilə bunun aradan qaldırılmasının önəmini vurğulayıb və bundan sonra iki ölkə arasında sülh müqaviləsinin imzalanması üçün yaxşı zəmin yaranacağını bildirib.

Görüşdə çoxsaylı İtaliya şirkətlərinin Azərbaycanda fəaliyyəti, xüsusilə Qarabağda bir sıra sahələrdə, o cümlədən bərpa-quruculuq işlərində, muzeylərin tikilməsində və digər müxtəlif layihələrin icrasında iştirak etdikləri vurğulanıb.

Sonda Prezident İlham Əliyev İtaliya Prezidentini Azərbaycana dövlət səfərinə dəvət edib. Sercio Mattarella dəvəti məmnunluqla qəbul edib.

# İki ölkə arasında yeni əməkdaşlıq istiqamətləri müəyyənləşdirilib



Sentyabrın 5-də Romada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşü keçirilib.

Romanın "Chigi" Sarayında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb.

İtaliyanın nümayəndə heyətinin üzvləri Azərbaycan Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri isə İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloniyə təqdim olunub.

Əvvəlcə Prezident İlham Əliyev ilə İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloninin təkbətək görüşü olub.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam edib.

Ciorcia Meloni dövlətimizin başçısının İtaliyaya bu səfərinin çox səmərəli olduğunu vurğulayaraq, Prezident İlham Əliyevlə İtaliya-Azərbaycan ikitərəfli münasibətlərinin gündəliyində olan məsələlərə dair ətraflı müzakirələr aparıldığını qeyd edib, iki ölkə arasında yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirildiyini bildirdi. Bu xüsusda, ölkələrimiz arasında ikitərəfli iqtisadi-ticari əlaqələrin, xüsusilə sənaye, energetika sahələrində əməkdaşlığın genişləndirilməsi, humanitar, mədəni istiqamətlərdə əlaqələrin inkişafı barədə ətraflı fikir mübadiləsi aparılıb. Humanitar-mədəni əlaqələrin inkişafında ADA Universiteti ilə İtaliya universitetləri arasında İtaliya-Azərbaycan Universiteti layihəsinin önəmi xüsusi qeyd olunub.

Enerji sahəsində ikitərəfli əməkdaşlıqdan məmnunluq ifadə edilib. Bu xüsusda TAP layihəsinin əhəmiyyətinə, onun bu gün İtaliyanın və Avropa ölkələrinin enerji təhlükəsizliyində roluna toxunulub, TAP-ın ötürücülük qabiliyyətinin artırılması barədə fikir mübadiləsi aparılıb.

İtaliya Nazirlər Şurasının sədri Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımlara görə minnətdarlığını bildirib və bu xüsusda, ölkəmizin rolunu qeyd edib. O, COP29-a dəvətə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib və bu tədbirdə məmnuniyyətlə iştirak edəcəyini vurğulayıb. İtaliya Nazirlər Şurasının sədri COP29-un uğurla keçirilməsi üçün ölkəsinin Azərbaycana bütün lazımi dəstəyi göstərməyə hazır olduğunu deyib. Bu xüsusda, İtaliyanın iqlim dəyişikliyi üzrə nümayəndəsinin Azərbaycanın COP nümayəndə heyəti ilə yaxından əməkdaşlığı və Azərbaycanın COP Prezidentinin G20 çərçivəsində İtaliyada keçirilən ekologiya nazirlərinin toplantısında iştirakı qeyd olunub.



Söhbət zamanı İtaliyanın "Eni S.P.A" şirkəti ilə SOCAR arasında yeni əməkdaşlıq sahələrinin müəyyən olunması məmnunluqla qeyd edilib, bu şirkətlərin üçüncü ölkələrdə birgə layihələrdə iştirakı məsələsi barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanın və İtaliyanın üçüncü ölkələrdə birgə investisiya layihələrində iştirakı məsələsinə toxunulub. Orta Dəhlizin əhəmiyyəti vurğulanıb və İtaliya şirkətlərinin də bu dəhlizin imkanlarından istifadə etməsi perspektivləri müzakirə olunub.

İtaliya-Azərbaycan iqtisadi əməkdaşlıq məsələləri üzrə komissiyanın roluna toxunulub, gələn il komissiyanın iclasının keçirilməsi razılaşdırılıb.

Prezident İlham Əliyev İtaliya Nazirlər Şurasının sədrini Azərbaycana rəsmi səfərə dəvət edib. Ciorcia Meloni dəvəti məmnunluqla qəbul edib.

# Sənədlərin mübadiləsi mərasimi





Sentyabrın 5-də Romada Azərbaycan ilə İtaliya arasında imzalanmış sənədlərin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İtaliya Respublikasının Nazirlər Şurasının sədri Ciorcia Meloninin iştirakı ilə mübadiləsi mərasimi olub.

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının "Eni S.P.A" şirkəti arasında bioyanacaq və bioxammal sahəsində Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi mübadilə ediblər.

"Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının "Eni S.P.A" şirkəti arasında enerji təchizatı təhlükəsizliyi məqsədilə hasilat və midstrim sahəsində neft-qaz layihələri üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi mübadilə ediblər.

"Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə İtaliya Respublikasının "Eni S.P.A" şirkəti arasında enerji keçidi və istixana qazlarının azaldılması sahəsində Anlaşma Memorandumu"nu Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf və İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi mübadilə ediblər.

# İlham Əliyev İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Romada İtaliyanın "Eni S.P.A" şirkətinin baş icraçı direktoru Klaudio Deskalzi ilə görüşüb.

Görüşdə SOCAR ilə "Eni S.P.A" şirkəti arasında imzalanacaq sənədlərin əhəmiyyətinə toxunulub, neft-qaz, bərpaolunan enerji və iqtisadiyyatın müxtəlif sahələrində yeni texnologiyaların tətbiqi istiqamətində əməkdaşlığın genişləndirilməsi və şaxələndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Qeyd olunub ki, sənədlərin imzalanmasından sonra "Eni S.P.A" şirkəti daha qısa müddət ərzində konkret nəticələrin əldə edilməsi üçün işçi plan və strategiya hazırlayacaq.

# Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatına

Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyası sizləri, Yeni Azərbaycan Partiyasının bütün tərəfdarlarını və fəallarını 2024-cü il 1 sentyabr tarixində baş tutmuş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə qazanılmış inamlı qələbə münasibətilə təbrik edir.

Biz Özbəkistandan seçki kampaniyasını diqqətlə izlədik və əminliklə deyə bilərik ki, Azərbaycanda parlament seçkiləri uğurla keçirildi. Ölkənizdə seçki üçün bütün zəruri qanunvericilik və təşkilati imkanlar yaradılmışdır. Ona görə də seçkilər hamı tərəfindən qəbul edilmiş demokratik standartlar əsasında açıq və şəffaf mühitdə keçirilmişdir. Xüsusi vurğulamaq istərdik ki, bu seçki kampaniyası Azərbaycanın bütün ərazisini əhatə edərək, ölkənizin ərazi bütövlüyünün və suverenliyinin bərpasının bariz təcəssümünə çevrildi.

Fürsətdən istifadə edərək, partiyanızla müvafiq memorandumun imzalanması ilə yeni səviyyəyə yüksələn səmərəli əməkdaşlığa hazır olduğumuzu bir daha bildiririk. Ölkələrimizin prezidentlərinin siyasi kursunun təzahürü olmuş bu addımın mühüm qarşılıqlı faydalar gətirəcəyinə və çoxşaxəli strateji tərəfdaşlığımızın yüksək ruhunu daha da artıracağına əminik.

Bütövlükdə hesab edirik ki, bu ilin 1 sentyabr seçkilərində qazanılmış qələbə Zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın diqqətəlayiq sosial-iqtisadi inkişafının və yüksək beynəlxalq nüfuzunun xalq tərəfindən qiymətləndirilməsinin və dövlət başçısının ideyalarının partiyanız tərəfindən fəal şəkildə həyata keçirilməsinin sübutudur.

**Hörmətlə,**
**Aktam Xaitov**
**Sahibkarlar və İş Adamları Hərəkatı - Özbəkistan Liberal Demokratik Partiyası Siyasi Şurası İcra Komitəsinin sədri**

# Milli rəqəmsal reytinq...

**Azərbaycanda rəqəmsallaşma üzrə milli reytinq sisteminin istifadəyə verilməsi istiqamətində işlər aparılır. “Polyhedron-Digital radar of Azerbaijan” rəqəmsallaşma milli reytinq sistemi ölkəmizin qlobal aləmdə rəqəmsallaşma səviyyəsini müəyyən etməyə imkan verəcək. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin İdarə Heyətinin sədrinin müavini Şahin Əliyev bildirib ki, dünyada bir neçə reytinq indeksi mövcuddur ki, onlar vasitəsilə ölkələrin rəqəmsallaşma vəziyyəti qiymətləndirilir və reytinqi formalaşdırır. Bu baxımdan ölkəmizin rəqəmsallaşma vəziyyətini daha əhatəli şəkildə əks etdirmək, qlobal hesablarda daha yaxşı yerlərdə qərar tutmasını təmin etmək üçün milli reytinq sisteminin yaradılması zəruridir. Yeni reytinq sisteminin yaradılması istiqamətində görülən işlər çərçivəsində milli qiymətləndirmə metodologiyası formalaşdırılıb, “Polyhedron” adlanan yanaşma-ölçmə mexanizmi rəqəmsal inkişaf konsepsiyası ilə tam uyğunlaşdırılıb. “Polyhedron” mexanizmi 9 fərqli komponent üzrə qiymətləndirmə həyata keçirməyə imkan verir ki, bu da rəqəmsal tədqiqlərdə iştirak edən bütün tərəfləri daha əhatəli və məsuliyyətli tədbirlər aparmağa dəvət edir.**

# Azərbaycanın beynəlxalq mövqeyini yaxşılaşdıracaq

## Rəqəmsallaşma iqtisadi inkişafı və şəffaflığı təmin edir

Rəqəmsal texnologiyaların geniş tətbiqi hazırda inkişaf edən müasir informasiya cəmiyyətinin əsas atributlarından biridir. Hazırda dünyada Sinqapur, Danimarka, ABŞ, Yaponiya, Estoniya, Kanada, Yeni Zelandiya, Koreya, Böyük Britaniya, Tayvan və digər ölkələr rəqəmsallaşmanın səviyyəsinə görə, ən inkişaf etmiş ölkələrdir. Həmin ölkələrdə rəqəmsallaşma cəmiyyətin adi həyat tərzinə çevrilib, hətta bəzi ölkələr rəqəmsal valyuta buraxmaqdadır.

Azərbaycan Avropa İttifaqının Şərq tərəfdaşlığı proqramına üzv ölkələrdən biri kimi Avropa ölkələri ilə elektron idarəçiliyin inkişafı sahəsində sıx əməkdaşlıq edərək rəqəmsal quruculuqda ən son yenilikləri öyrənərək tətbiq etməkdədir. 2011-ci ildən rəqəmsallaşmaya start verən Azərbaycan Elektron Hökumət Platformasının istifadəyə verilməsi ilə rəqəmsal xidmətlər infrastrukturunu qurub. Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (“ASAN Xidmət”) fəaliyyətə başlaması, “Elektron hökumət” portalının istifadəyə verilməsi isə “Rəqəmsal hökumət”ə keçidin təmin edilməsində mühüm rol oynayıb.

Bütün rəqəmsal xidmətlərin icrasını təmin edən “Asan İmza” və “SİMA” sistemləri isə biznesin inkişafına, yerli və xarici sahibkarların qeydiyyatı və fəaliyyətinin asanlaşmasına, rəqəmsal xidmətlərdən faydalanmağa səbəb olmaqdadır. Bu sistem, həmçinin Azərbaycanın ixrac potensialının artırılmasında biznes üçün səmərəli bir vasitəyə də çevrilməkdədir. Bu xidmətlərin “Azexport.az” portalına inteqrasiya edilməklə “Made in Azerbaijan” brendi ilə ixrac olunan məhsulların istehsalçıları ilə dünyanın nüfuzlu biznes nümayəndələri arasında elektron ticarət mübadiləsinin yaradılmasına töhfə verməkdədir.

## 2026-cı ilə qədər ictimai xidmətlərin 80 faizi rəqəmsallaşacaq






Rəqəmsallaşma iqtisadi, sosial inkişafa təkan verməklə yanaşı, ölkənin milli informasiya təhlükəsizliyinin etibarlı mühafizəsi baxımından da əhəmiyyət kəsb edir. Bu strateji baxışın ən mühüm platforması olan “Rəqəmsal hökumət” isə idarəçilikdə səmərəliliyin və qarşılıqlı yaxşı partnyorluğun yaradılması, şəffaflığın təmin edilməsində ən yaxşı modeldir. Bu model cəmiyyətin açıq informasiya əldə etməsi baxımından da mütərəqqi hesab olunur. Ona görə də, rəqəmsallaşmanın daha dərin təşəkkül tapması demokratik inkişafı və şəffaf idarəçiliyi gücləndirir. Rəqəmsallaşma həm də ekoloji əhəmiyyət daşıyır, rəqəmsal xidmətlərin çeşidinin artması kağız daşıyıcılardan istifadəni də minimallaşdırır ki, bu meşələrin azalmasına, müxtəlif resurslara qənaət edilməklə karbon emissiyasının azalmasına səbəb olur. Bu isə “yaşıl dünya” quruculuğuna verilən töhfələrdən biridir.

Azərbaycan hökuməti rəqəmsal iqtisadiyyat quruculuğu istiqamətində ən son innovasiyaların tətbiqində çox maraqlıdır və bu istiqamətdə genişmiqyaslı islahatlar həyata keçirir. Rəqəmsal İqtisadiyyat Strategiyası və “2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” sənədləri çərçivəsində nəzərdə tutulan fundamental hədəflərin əsas qayəsi də dayanıqlı və rəqabətədavamlı rəqəmsal sənaye arxitekturasının möhkəmləndirilməsidir.

Rəqəmsal qanunvericiliyin təkmilləşdirilməsi də yuxarıda vurğuladığımız prioritetlərin tərkib hissəsidir. Yeni hazırlanan “İnnovasiya fəaliyyəti haqqında” qanun layihəsi isə rəqəmsal iqtisadiyyatın şaxələndirilməsi və hasilat sənayesindən asılılığın azaldılması üzrə milli baxışı özündə əks etdirir. Layihədə yeni innovasiya texnologiyalarının daha geniş tətbiqi məqsədilə birbaşa xarici investisiyaların artırılması üçün yeni sərmayə təşviqlərinin verilməsi nəzərdə tutulur. Hökumət bu baxımdan rəqəmsal xidmətlərin bütün sferalara nüfuz etməsinə çalışır və 2026-cı ilə qədər ölkədə ictimai xidmətlərin 80 faizinin rəqəmsallaşdırılması planlaşdırılır.

## Ən yaxşı ölkələr qrupunda...

BMT-nin İqtisadi və Sosial Məsələlər Departamentinin (UNDESA) Rəqəmsal Hökumət üzrə rəhbəri Vinçenzo Aquaro Azərbaycanın rəqəmsal quruculuğu yüksək dəyərləndirib. Eləcə də Azərbaycanın rəqəmsal nailiyyətləri aparıcı dünya təşkilatları tərəfindən tərtib edilən hesabatlarda da öz əksini tapmaqdadır. Dünya İqtisadi Forumunun “IDEA: Azərbaycanın rəqəmsal iqtisadiyyatına investisiya” hesabatında Azərbaycanın müasir İT yenilikləri, startaplar və innovasiyalar üzrə yaratdığı əlverişli biznes mühiti müsbət qiymətləndirilib. Dünya Bankının ötən il dərc etdiyi “GovTech Yetkinliyi İndeksi”nin hesabatında yüksək nəticələr əldə edən Azərbaycan rəqəmsallaşma səviyyəsinə görə ən yaxşı ölkələr qrupunda yer alıb. “GovTech Yetkinlik İndeksi”nə görə, Azərbaycan rəqəmsallaşma sahəsində hökumət sistemlərinin təkmilləşdirilməsi, vətəndaşlara təqdim olunan xidmətlər paketinin genişləndirilməsi, vətəndaş iştirakının təmin olunması və rəqəmsal texnologiyalardan istifadənin təşviqi üzrə yüksək qiymətləndirilib. Rəqəmsallaşma üzrə milli reytinqin hazırlanması isə Azərbaycanın mövqeyini daha da yaxşılaşdıracaq.

*Elbrus CƏFƏRLİ*

# “Yaşıl iqtisadiyyat”ın üstünlükləri...

**Mərkəzi Bank (MB) və Beynəlxalq Maliyyə Korporasiyası (BMK) arasında “yaşıl iqtisadiyyat”a keçid üzrə müəyyən edilmiş strateji prioritetlər müzakirə edilib. Korporasiyanın Avropa üzrə regional direktoru İnes Roşa Azərbaycanda “yaşıl iqtisadiyyat”ın inkişafı üçün zəruri infrastrukturun formalaşdırılmasına yönəlmiş təşəbbüsləri müsbət dəyərləndirərək MB-nin bu istiqamətdə gördüyü tədbirlərin dayanıqlı “yaşıl maliyyə” sisteminin qurulmasına töhfə verəcəyinə əminliyini ifadə edib. “Yaşıl iqtisadiyyat”ın əsas sütunu olan “yaşıl maliyyə” dayanıqlı inkişafı və ətraf mühitin qorunmasını dəstəkləyən çoxsaylı maliyyə əməliyyatlarını və maliyyə məhsullarını özündə birləşdirir. Bu maliyyə aləti vasitəsilə ətraf mühitin qorunmasında makro səviyyədə maliyyə resurslarının səfərbər edilməsini nəzərdə tutur. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədində 5-ci prioritet kimi “Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsinə keçidin sürtələndirilməsi öz əksini tapıb. Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan “yaşıl texnologiyalar”ın tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulub. Milli Prioritetlərə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində addımlar atılmaqdadır. Bütün bunlar isə “yaşıl maliyyələşmə”nin daha da artırılmasını labüd edir.**

## KOBİA-dan “yaşıl biznesə” dəstək...

Dayanıqlı istehsala nail olunmasında, resurs və enerji səmərəliliyinin artırılmasında “yaşıl biznes”in fəaliyyəti də mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) səylərini artıraraq kiçik və orta biznesin təqdim etdiyi “yaşıl layihə”lərə daha çox kredit ayırmağa qərar verib. Agentlik tərəfindən “yaşıl iqtisadiyyat”a keçidə töhfə verəcək 19 layihəyə qrant ayrılıb, 10-a yaxın “Startap” şəhadətnaməsi verilib. KOBİA-nın strateji hədəf baxışı KOB subyektlərinin bərpa olunan enerji qaynaqlarına üstünlük verən, aşağı temperaturlu geotermal suların istiliyindən səmərəli yolla elektrik və istilik enerjisi əldə edən, smart polimer kompozisiya materiallarından istifadə etməklə binalarda enerji sərfiyyatının azaldılmasını təşviq edən, eləcə də “ağıllı suvarma” texnologiyasının yaradılmasında xüsusi təşəbbüskarlıq göstərən biznes subyektlərinə davamlı dəstək olmaqdır.

Həmin sahibkarları “yaşıl layihələrə” həvəsləndirmək üçün bir sıra motivasiyalar da nəzərdə tutlub ki, onlardan biri “Ekoloji R2” sertifikatının verilməsidir. Bu sertifikat atmosferdən suyun əldə edilməsi üçün innovativ su generatorunun istehsalı və satışı, tullantıların ağıllı yolla toplanması və emalı, yeni tipli külək enerjisi turbinlərinin hazırlanması və s. layihələrdə fəal olan sahibkarlara veriləcək. Eləcə də alternativ içməli su mənbəyinin yaradılması, üzvü tullantıları emal edərək yem istehsalında istifadə oluna biləcək protein, yağ və yüksək verimli gübrənin istehsalı, kənd təsərrüfatında suvarma səmərəliliyinin artırılması üçün “ağıllı su” layihələrində fərqlənən kiçik və orta sahibkarlara vergi güzəştləri nəzərdə tutulub.



## Vergi güzəştləri, iqtisadi stimullar...

Biznesin motivasiyasını artırmaq üçün müxtəlif imtiyazlar və dəstək tədbirləri ilə yanaşı, “yaşıl vergi” güzəştləri də xüsusi əhəmiyyət kəsb edir. Həmin siyasətə uyğun olaraq avtomobil bazarında ekoloji cəhətdən təmiz maşınların idxalının və istifadəsinin stimullaşdırılması üçün vergi güzəştlərinin tətbiqinə yer verilməkdədir. 2019-cu ildən etibarən, mərhələlərlə elektrik və hibrid mühərrikli avtomobillərə, eyni zamanda, enerji doldurucularına və sıxılmış qazla işləyən avtobuslara güzəştlər tətbiq olunmağa başlanılıb. Vergi Məcəlləsinə əsasən, elektrik mühərriki ilə işləyən avtomobillərin idxalı əlavə dəyər vergisindən (ƏDV) azad olunub. 2022-ci il yanvarın 1-dən elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı və satışı 3 il müddətinə, istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı 4 il müddətinə ƏDV-dən azad olunub. Sürücü daxil olmaqla, 10 nəfərdən çox adam daşımaq üçün nəzərdə tutulmuş sıxılmış qazla işləyən avtobusların idxalı 2020-ci il yanvarın 1-dən 5 il müddətinə ƏDV-dən azaddır.

Hazırkı mərhələdə külək, günəş, termal sular və digər resursların və digər təmiz enerji mənbələrinin istehsalı üzrə layihələrin “yaşıl vergi”yə cəlb edilməsi daha aktualdır. Xüsusilə də işğaldan azad edilmiş ərazilərdə “Yaşıl Enerji Zonası”nın yaradılması və bərpa olunan enerji potensialının istismarına xarici şirkətlərin cəlb edilməsi bu bölgədə investisiyaların təşviqini daha da zəruri edir ki, bu məqsədlə gömrük və vergi güzəştlərinin tətbiqinə ehtiyac yaranıb.

## Sosial güzəştlər, həssas qrupların müdafiəsi...

“Yaşıl iqtisadiyyat” quruculuğunda stimullaşdırıcı və təşviqedici tədbirlər sırasında sosial güzəştlər də olduqca əhəmiyyətlidir. Bu çərçivədə əmək qanunvericiliyində əhalinin sosial həssas qruplarından olan işçilər üçün bir sıra güzəşt və əlavə təminatlar əks olunub. “Məşğulluq haqqında” qanuna əsasən, müəssisə və təşkilatlarda sosial müdafiəyə xüsusi ehtiyacı olan işaxtaran və işsiz şəxslərin işlə təminatına xüsusi yer verilib. Əmək qanunvericiliyində həssas qrup üzrə güzəştlərə əsasən, səhhəti, əmək şəraiti, əmək funksiyasının xüsusiyyətləri və digər hallar nəzərə alınaraq onlar üçün qısaldılmış iş vaxtı müəyyən edilir. Vətənin müdafiəsi, azadlığı və ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarda xəsarət almış və əlilliyi müəyyən edilmiş işçilər, Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün müdafiəsi zamanı göstərdiyi şücaətlərə görə dövlət təltiflərinə və fəxri adlara layiq görülmüş işçilər, hamilə qadınlar, uşağı üç yaşınadək sosial məzuniyyətdə olan və məzuniyyət bitdikdən sonra bir ildən az müddətdə müvafiq vəzifədə çalışan qadınlar, yaşı 18-dən az olan işçilər və digər kateqoriyalardan olan işçilərin attestasiyası keçirilmir. Əmək Məcəlləsinə əsasən, yeraltı işlərdə çalışan, əmək şəraiti zərərli və ağır, habelə əmək funksiyası yüksək həssaslıq, zehni və fiziki gərginliklə bağlı olan işçilərə əmək şəraitinə və əmək funksiyasının xüsusiyyətlərinə görə əlavə məzuniyyətlər verilir.

*E.CƏFƏRLİ*

# Parisdən Azərbaycana qarşı növbəti hörmətsizlik...

Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini təmin etməsi Ermənistana havadarlıq edən beynəlxalq dairələri ciddi narahat edir. Bu baxımdan, xüsusilə Fransa öndə gedir. Görünən odur ki, Fransa ermənilərdən çox ermənilik edir. Bu ölkə əsassız olaraq olaraq ölkəmizin imicinə zərbə vurmağa çalışır. Rəsmi Parisin öz vətəndaşlarına Azərbaycana səyahət etmək xəbərdarlığı da bunun daha bir göstəricisidir. Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Azərbaycanda guya Fransa vətəndaşlarının saxlanıldığı və hədəf alındığı barədə əsassız iddiaları səbəb gətirərək ölkəmizə dair açıqladığı sərt səyahət xəbərdarlığı qəbulolunmazdır.

## İcma: Fransanın insan hüquqlarından danışmağa haqqı yoxdur

### Paris münasibətləri daha da gərginləşdirir

Rəsmi Bakının bəyan etdiyi kimi, Fransa tərəfindən verilmiş bu cür əsassız, qərəzli qərar və bəyanat bu ölkənin Azərbaycanla münasibətləri daha da gərginləşdirmək niyyətindən xəbər verir. Digər tərəfdən, bu ölkənin Avropa və Xarici İşlər Nazirliyi Azərbaycanla bağlı sentyabrın 4-də dərc etdiyi səyahət xəbərdarlığında ölkəmizin hüquq sisteminə kölgə salmağa və “Dağlıq Qarabağ Muxtar Vilayəti”, “ətraf rayonlar” kimi ifadələrdən istifadə edərək Azərbaycanın ərazi bütövlüyünə xələl gətirməyə cəhd göstərib. Məsələ ilə bağlı Qərbi Azərbaycan İcması da bəyanat verib. Bəyanatda qeyd olunub: “BMT Nizamnaməsi ilə üzərinə düşən dekolonizasiya öhdəliklərini yerinə yetirməyən, neokolonializm siyasəti aparan və bununla da milyonlarla insanın təməl hüquqlarını pozan Fransanın insan hüquqlarından danışmağa haqqı yoxdur. Ermənistanın ən azı sözdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığı halda, Fransanın buna getməməsi onun Azərbaycana qarşı nə dərəcədə qərəzli yanaşdığını göstərir”.

### İşğalçıya və separatçılara dəstək verən Fransa

Ümumiyyətlə, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Fransa ölkəmizə qarşı aqressiv siyasət yürüdür. Bu ölkənin dövlət başçısı, hökuməti və parlamenti davamlı olaraq Azərbaycana qarşı böhtan kampaniyası aparır. Nümunə üçün deyə bilərik ki, Fransa parlamenti 2020-ci ildən etibarən dəfələrlə ölkəmizə qarşı qərəzli qətnamələr qəbul edib. Sonuncu dəfə bu ilin yanvarında Fransa Senatının qəbul etdiyi sənəd də Azərbaycanofob, irqi ayrıseçkilik açıq-aşkar nümayiş olundu. Özünü “demokratiyanın beşiyi” adlandıran və BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Fransa parlamentinin bu qətnaməsi beynəlxalq hüququn açıq-aşkar tapdanması, işğalçılıq siyasəti yürütmüş Ermənistanın və erməni separatçılarının dəstəklənməsi isə hərbi cinayətlərə şərik olmaq demək idi. Həmin sənədin Senatda müzakirə olunması zamanı Fransanın Avropa və Xarici İşlər naziri Stefan Sjurnenin çıxış etməsi, “fəxri qonaq” qismində isə Ermənistanın Fransadakı səfiri Hasmik Tolmacyan və separatçıların Fransadakı nümayəndəsi Hovhannes Gevorgyanın da iştirak etməsi Fransa tərəfindən Azərbaycanın ərazi bütövlüyünə açıq hörmətsizliyin nümayişi idi.



Tarixin arxivinə göndərilmiş ATƏT-in Minsk qrupunun həmsədri olmuş bu ölkənin təcavüzkar Ermənistanı dost və müttəfiq hesab etməsi, Ermənistana dəstək göstərməsi ilk növbədə Fransanın özünə zərbədir. Xatırladaq ki, həmsədr ölkə kimi Fransa heç vaxt ədalətli mövqe tutmayıb. Bütün dünya şahiddir ki, Ermənistan 30 il işğal altında saxladığı Azərbaycan torpaqlarında vandalizm törədib. Amma Fransa heç vaxt Ermənistanı işğalçı siyasətə son qoymağa çağırmadı, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin yerinə yetirilməsini tələb etmədi. Əksinə, Azərbaycan 44 günlük Vətən müharibəsində torpaqlarını işğaldan azad etməklə Təhlükəsizlik Şurasının qətnamələrini icra edərkən Fransa açıq-aşkar Ermənistana dəstək verdi. Bütün bunlar, o cümlədən Fransa parlamentində qəbul olunmuş qətnamələr Azərbaycan-Fransa münasibətlərinə ciddi zərbə vurur.

### Fransa törətdiyi cinayətlərə görə cavab verməlidir

Hazırda da Fransa gerçək simasını nümayiş etdirir. İndiki şəraitdə də Fransanın bu mövqeyi Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə ziyan vurur. Eyni zamanda, beynəlxalq hüquqa hörmətsizlik nümayiş etdirən Fransa normallaşma prosesində vasitəçi ola bilməyəcəyini bir daha təsdiqləyir. Parisin Ermənistanı silahlandırması Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin həyata keçməsinə, münasibətlərin normallaşmasına zərbə vurur, qonşu dövlətlərə qarşı ərazi iddiaları üzərində qurulan erməni şovinist ideologiyasının məqsədlərinə xidmət edir, revanşist qüvvələri həvəsləndirir, regionu yeni təhlükələrə yönləndirir.

Fransa öz tarixində insanlığa qarşı çoxsaylı cinayətlər törədib və bu gün də Afrikada və digər yerlərdə bir sıra xalqları öz müstəmləkəsi altında saxlamağa çalışır. Paris ilk növbədə bu cinayətlərin hesabını verməlidir. Özünü demokratiyanın beşiyi kimi təqdim etməyə çalışan Fransanın əslində, tarixən müxtəlif xalqlara qarşı müstəmləkəçilik siyasəti həyata keçirdiyi bütün dünyaya məlumdur. Təəssüf ki, beynəlxalq ictimaiyyət rəsmi Parisin bu siyasətinə qarşı adekvat reaksiya vermir. Lakin Azərbaycan bu məsələdə prinsipial mövqe nümayiş etdirir və Fransanın müxtəlif xalqlara qarşı repressiv siyasətinə etiraz səsini ucaldır. Eyni zamanda, müstəmləkəçiliyə qarşı aparılan mübarizəyə siyasi və mənəvi dəstək verilir. Bakı Təşəbbüs Qrupunun yaradılması da bu məqsədə xidmət edir. Bakı Təşəbbüs Qrupu tərəfindən bütün dünyada müstəmləkəçiliyə məruz qalan xalqlara, xüsusilə Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı fransız müstəmləkələrinə həsr olunmuş beynəlxalq tədbirlər keçirilir.

Təbii ki, rəsmi Paris bütün bunları qıcıqla qarşılayır. Fransa XİN-in vətəndaşlarına səyahət xəbərdarlığı da buradan qaynaqlanır. Lakin Parisin Azərbaycana qarşı qərəzli mövqeyi ölkəmizi haqq yolundan sapdıra bilməz!

*Nardar BAYRAMLI*

# Qarabağ separatçıları ədalət mühakiməsində...

## Azərbaycan yeni siyasi reallıqlar yaratdığı kimi, hüququn aliliyini də təmin etdi

2023-cü ilin sentyabrında baş tutan antiterror tədbirləri 30 ildən artıq davam etmiş haqsızlığa son qoydu. Azərbaycanın suverenliyinin bərpa edilməsi ilə yanaşı, həm də illərlə regionda separatizm yayan cinayətkarlar ədalət mühakiməsi qarşısına çıxarıldılar. Xatırladaq ki, 24 saatlıq antiterror tədbirləri nəticəsində Azərbaycanın hüquq-mühafizə orqanları Qarabağda separatçı rejimə rəhbərlik etmiş Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, sabiq “xarici işlər naziri” David Babayan, eləcə də “parlament sədri” David İşxanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan və keçmiş “dövlət naziri” Ruben Vardanyanı həbs edərək Bakıya gətirib.

### İş məhkəməyə göndərilir...

Yeri gəlmişkən, separatçıların işi ilə bağlı yeni təfərrüatlar ortaya çıxıb. Belə ki, Baş prokuror Kamran Əliyev KİV-ə açıqlamasında istintaqın yekunlaşdığını və yaxın vaxtlarda materialların məhkəməyə təqdim olunacağını bildirib: “Hazırda cinayət işinin materialları ilə həm təqsirləndirilən şəxslər, həm də zərərçəkmişlər tanış olurlar. Bilirsiniz ki, bu cinayət işində zərərçəkənlər çoxdur. Bütün istintaq-əməliyyat tədbirləri həyata keçirildikdən sonra iş beynəlxalq standartlara və Azərbaycan qanunvericiliyinə uyğun olaraq mahiyyəti üzrə baxılması üçün məhkəməyə göndəriləcək”.

### Azərbaycanın iradəsinə təsir göstərmək olmaz!

Bəli, Azərbaycan son 4 ildə bölgədə yeni siyasi-hərbi reallıqlar formalaşdırdığı, ədaləti bərpa etdiyi kimi, hüququn aliliyini də təmin etmiş oldu. İllərlə xalqımıza qarşı soyqırımı siyasəti yürütmüş, Azərbaycan qanunlarını pozaraq separatçı silahlı dəstə yaratmış və suveren ərazilərimizdə qeyri-qanuni rejim formalaşdırmış, birinci və ikinci Qarabağ müharibələrində bir çox cinayətlərdə həm bilavasitə iştirak etmiş, həm də törədilməsinə əmr vermiş şəxslər bu gün ədalət mühakiməsinə çıxarılır. Cinayətkarın törətdiyi cinayətin məsuliyyətini daşıması təbii haldır - amma, nəzərə almaq lazımdır ki, artıq bir ilə yaxındır davam edən bu proses dövründə ölkəmizə qarşı xəbis planlar hazırlayanlar həm də bu cinayətkarlara “azadlıq” tələb edirdilər. Zaman-zaman Avropanın bəzi təşkilatları, Okampo kimi adını “hüquqşünas” qoyan, amma beynəlxalq hüququn bütün kodekslərini pozmaq üçün fürsət axtaranlar öz şəxsi mənafeləri üçün bu kimi qeyri-qanuni “çağırışlar”edirdilər. Nəticə etibarı ilə, bu çağırışlar, bəzən isə hətta “hədə” formasında səslənən fikirlər heç biri ölkəmizin verdiyi və verəcəyi qərarlara təsir etmir - Azərbaycan Prezidentinin hər zaman ifadə etdiyi kimi, heç bir güc ölkəmizin iradəsinə təsir göstərə bilməz.



### Separatçılara “azadlıq” istəyənlərin qaranlıq keçmişi...

Avropa Şurası, Avropa İttifaqı bu kimi təşkilatlarda erməni lobbisinin əlaltılığını həyata keçirən bir sıra “diplomatlar” bu kimi çirkin kampaniyalar vasitəsi ilə nələrəsə nail olacağını düşünürdü - amma zaman göstərdi ki, onlar səhv edir. Azərbaycan Qarabağın azadlığında göstərdiyi iradəni və qətiyyəti davam etdirərək həmin cinayətkarların məhkəmə qarşısında dayanmasını təmin etmiş oldu.

Ötən dövr sübut etdi ki, Qarabağ separatçılarına “azadlıq” tələb edənlər kimlərdir - onların bəziləri korrupsiya faktları ilə saxlanıldı, bəziləri haqda dünyanın aparıcı KİV-lərində ifşaedici məlumatlar açıqlandı, bəzilərinin isə hətta erməni puluna, erməni maliyyəsinə köləlik etdiyi açıq arqumentlərlə üzə çıxdı. Beləliklə, onların kimliyi bütün dünyaya bəyan edilmiş oldu.

### Hüquq və ədalət ölkəmiz üçün ən mühüm prioritetlərdəndir

Bu, həm də ölkəmizin hüquqi dövlət prinsiplərinin nə qədər dərin olduğunu göstərir. Azərbaycan bu kimi məsələlərdə heç bir zaman kompromisə, güzəştə getmir - qanun Azərbaycan dövlətində yeganə istinad mənbəyidir. Özünü demokratik cəmiyyət adlandıran, dünya üçün “hüquqi standartlar” formalaşdırdığını iddia edən Qərb isə bu kimi çağırış və “istəklərlə” özünün əsl simasını ortaya qoyur. Okampo kimi “hüquqşünasların”, “məhkəmə təmsilçilərinin” davranışları, bir sıra təşkilatların “demokratik ənənə” adlandırdığı yanaşmalar onların kimliyinin üzərinə işıq salır.

Qərbin zaman-zaman buqələmun donuna bürünərək öz marağı xatirinə hətta beynəlxalq hüququ belə ikinci plana keçirməsinin çox şahidi olmuşuq. Ötən dövrlərdə Qərbin korporativ mənafeyinin qorunmasına yönəlik bir sıra presedentlər formalaşdırılıb - Qarabağ separatçılarına münasibət bunun real misalıdır. Necə ki, separatizmə yanaşmada, terrora baxışda, dini-irqi ayrı-seçkilik məsələsində Qərb məsələləri öz “pəncərəsi”ndə dəyərləndirməyə üstünlük verir, bu dəfə də analoji yola əl atdı. Amma Azərbaycan lazım olan cavabı da verdi, prosedurları da həyata keçirdi. Biz hər zaman bəyan edirik ki, bu kimi yanaşmalar nəinki subyekt olaraq bəzi xalqlara və ya dövlətlərə, ümumilikdə, beynəlxalq qanunvericiliyə və prosedurlara ikili yanaşma, fərqli standart yaradır. Bu isə adını “demokratik dünya” qoymuş, əslində isə korporativ maraqlara xidmət edən Qərb cəmiyyətinin imicinə daha da mənfi təsir göstərir.

*P.İSMAYILOV*

# Əsasnaməni təsdiqlədi...

## Ermənistan prosesin irəliləməsi üçün konstruktiv mövqe nümayiş etdirməlidir



Ermənistan hökuməti Azərbaycanla sərhədin delimitasiyası üzrə komissiyalar haqqında Əsasnamənin ratifikasiyasını təsdiqləyib. Bununla bağlı qərar layihəsində qeyd olunur ki, əsasnamə delimitasiya işlərinin təşkilini və müvafiq sənədlərin qəbulunu, dövlət sərhədinin kəsişməsinin protokol-təsvirinin tərtibini, müvafiq miqyaslı delimitasiya xəritəsinin tərtibini, ekspert qruplarının işini nəzərdə tutur. Əsasnamə və onun əsasında qəbul ediləcək sənədlər delimitasiya işlərinin gedişatının təmin edilməsinin hüquqi əsaslarını tamamlayacaq.

Xatırladaq ki, bir neçə gün öncə Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının yaydığı məlumatda bildirilirdi ki, "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 2024-cü il aprelin 19-da imzalanmış 8-ci görüşünün Protokoluna uyğun olaraq, Komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamənin razılaşdırılması ilə bağlı işlər yekunlaşıb". Komissiyaların birgə fəaliyyəti haqqında Əsasnamə müvafiq qaydada 2024-cü il avqustun 30-da imzalanıb. Hazırda Azərbaycanla Ermənistan dövlətdaxili prosedurların keçirilməsinə başlayıblar.

Qeyd edək ki, iki ölkə arasında sərhədlərin delimitasiyasına bu il aprelin 19-dan başlanıb. Əldə edilən razılığa uyğun olaraq may ayında isə Qazaxın işğal altında olan 4 kəndi Azərbaycana qaytarılıb. Belə ki, ikitərəfli dialoqun nəticəsi olaraq Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndləri ölkəmizə təhvil verilib. Mayın 24-də qeyd olunan kəndlərin əraziləri Azərbaycan Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürülüb. Bu il mayın 15-də Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə komissiyaların növbəti - 9-cu görüşü keçirilib. Görüş əsnasında Texniki Protokol razılaşdırılıb və bu barədə komissiyaların müvafiq Protokolu imzalanıb. Delimitasiya işləri nəticəsində 12,7 kilometr uzunluğunda sərhəd xətti müəyyən edilib.

Ermənistan tərəfindən müvafiq Əsasnamənin təsdiqlənməsi prosesin növbəti mərhələsinə necə təsir edəcək? Məsələ ilə bağlı qəzetimizə açıqlamasında politoloq Ramiz Alıyev bildirib ki, əsasnamənin razılaşdırılmasına uyğun olaraq dövlətlər öz daxili prosedurlarını müəyyənləşdirirlər. Bu da o deməkdir ki, hər iki dövlətin müxtəlif formada sərhəd təhlükəsizliyinin təmin edilməsi, eləcə də sərhədlərin delimitasiya edilməsi baxışları ola bilər. Buna görə də hazırda əldə olunan nəticəyə uyğun olaraq daxili prosedur qaydalarının bir-birinə uyğunlaşdırılması prosesi həyata keçirilir və bunun da nəticəsini biz yaxın gələcəkdə görəcəyik. Onun sözlərinə görə, Əsasnamənin razılaşdırılması ilə bağlı tərəflər gərgin iş fəaliyyəti həyata keçiriblər, müxtəlif görüşlər əsasında reqlament müəyyənləşdirilib və nəhayət, əsasnamənin razılaşdırılması ilə bağlı işər yekunlaşıb. Bunu mühüm bir irəliləyiş kimi nəzərə almaq lazımdır. "Heç bir vasitəçi olmadan, heç bir üçüncü dövlətin və yaxud təşkilatın dəstəyinə zərurət duyulmadan bu əsasnamənin razılaşdırılması həyata keçirilib. İndiyə qədər müəyyən bir ərazi, yəni Azərbaycanla Ermənistan sərhədlərinin şimal hissəsində razılaşma var. 12.7 km olsa da, çox müsbət nəticədir. Hesab edirəm ki, qarşıdakı dövr ərzində delimitasiya olunmuş sərhəd zolağının bir qədər də uzandığının şahidi olacağıq. İnanmaq istəyirik ki, şimaldan cənuba doğru bütün sərhədlər razılaşdırılacaq, delimitasiya olunacaq, sonrakı mərhələdə isə demarkasiya fəaliyyəti icra ediləcək. Əgər Ermənistan konstruktiv mövqe tutarsa bütün bunlara nail olmaq mümkündür", - deyən politoloq əlavə edib ki, mövcud Əsasnamə bunun üçün geniş imkanlar yaradır.

Ümumiyyətlə, Vətən müharibəsinin və antiterror tədbirlərinin nəticələrinə uyğun olaraq qalib Azərbaycan regionda yeni reallıqlar yaradıb. Bu reallıqlar ilk növbədə bölgədə sülh və təhlükəsizliyin təmin edilməsi, etimad mühitinin yaradılması nöqteyi- nəzərindən önəmlidir. Region 30 il ərzində Ermənistanın işğalçılıq siyasətinə görə təhdidlərlə, genişmiqyaslı eskalasiya riskləri ilə üzüzə qalıb. Bu da təbii ki, regional əməkdaşlığa mənfi təsir edib. Azərbaycanın yaratdığı reallıqlar isə bütün bunlara son qoyub. Sülh üçün açılan imkanlardan maksimum səmərəli istifadə olunmalıdır. Qalib Azərbaycan da məhz buna çalışır. Politoloq Ramiz Alıyev də hesab edir ki, tərəflər arasında vasitəçilərsiz dialoq uğurlu bir model kimi çıxış edir. Bu həm də onu göstərir ki, Azərbaycan və Ermənistan arasında vasitəçilərə ehtiyac yoxdur. Bizim üçün önəmli məsələ bundan ibarətdir ki, Bakı ilə İrəvan konstruktiv dialoq yolu ilə nəticələr əldə edə bilər.

***Nardar BAYRAMLI***

# QHT-lər adından "orden" və "medal" təqdim edənlərə xəbərdarlıq...

## Belə mənfi tendensiyaları aradan qaldırmaq üçün hər kəs səfərbər olmalıdır

Qeyri-hökümət təşkilatları hər zaman demokratik təsisatın ayrılmaz bir hissəsi kimi çıxış edib. Vətəndaş cəmiyyətinin inkişafı baxımından QHT-lərin fəaliyyəti insan hüquq və azadlıqlarının qorunması, o cümlədən seçilən prioritet istiqamətində mövcud problemlərin aradan qaldırılması üçün yolların aranması, maarifləndirmə və ən əsası vətəndaşla hökumət arasında körpü rolunu oynaması kimi müstəvilərdə tənzimlənir. Bununla yanaşı, QHT-lər müstəqil bir təşkilat olsa belə, onlar da öz ölkələrinin qanunlarına tabe olmalı, fəaliyyətlərini məhz qanunverici aktlara əsasən qurmalıdırlar.

Demokratiya yolu ilə addımlayan bütün sivil dövlətlərdə olduğu kimi, bizim ölkəmizdə də vətəndaş cəmiyyətinin inkişafı mühüm bir mərhələni təşkil edir. Dövlətin bu sektora göstərdiyi diqqət və qayğı nəticəsində ictimai sektorla bağlı məsələlər bütün aspektlər üzrə tənzimlənib, beynəlxalq təcrübələr tətbiq edilib. 2007-ci ildə MDB məkanında ilk dəfə olaraq Azərbaycanda qəbul olunan Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyası, 2008-ci ildə yaradılan Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası bu qəbildən olan addımlardandır. Fondun yaradılması bilavasitə vətəndaş cəmiyyəti institutlarının inkişafına çox böyük təkan verdi. Bu qurum vasitəsi ilə dövlət tərəfindən vətəndaş cəmiyyəti institutlarına hər il maliyyə vəsaitləri ayrılır. 2021-ci ilin aprelindən isə Prezident İlham Əliyevin imzaladığı Fərmana əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının əsasında "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi" publik hüquqi şəxs yaradılıb.

Təssüfləndirici haldır ki, bəzən ölkəmizdə III sektorun elə nümayəndələri də tapılır ki, özlərini heç də fəadliyyətlə deyil, daha fərqli təzahürlərdə ortaya çıxarırlar. Bəziləri QHT sektorunun fəaliyyət sferası ilə uyğun gəlməyən hallara yol verir, bəziləri isə bir qədər irəli gedərək vətəndaş cəmiyyəti adını öz şəxsi maraqları üçün alətə çevirir. Ötən dövrlərdə bu kimi halların şahidi olmuşuq - bir sıra peşə sahiblərinə "təşəkkürnamələr", hətta "sertifikatlar", "orden və medallar", "fəxri adlar" və bu kimi "mükafatlar" təqdim edən QHT-lərə də rast gəlinib. Gündəlik həyatımızda bu hallarla demək olar ki, tez-tez qarşılaşırıq - həkimlərin, hüquqşünasların, vəkillərin, hətta xidmət ofislərinin divarlarını bu kimi QHT-lərin "diplomları", masalarını isə "plaketləri" bəzəyir.

Yeri gəlmişkən, QHT-lərə Dövlət Dəstəyi Agentliyi bəyanat verib. Bəyanatda deyilir ki, son zamanlar bir sıra QHT-lərin özlərindən orden və medallar təsis etməsi və müxtəlif şəxsləri, xüsusilə şəhid ailələrinin üzvlərini, o cümlədən vəzifəli şəxsləri, dövlət məmurlarını bu orden və medallarla təltif etməsi müşahidə edilir. "Bildiririk ki, "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsinə əsasən, orden və medal - vətəndaşlara xüsusi xidmətlərə görə dövlət tərəfindən verilən dövlət təltifdir. Bu Qanundan başqa digər normativ hüquqi aktlarda orden və medallar (o cümlədən "orden" və ya "medal" ifadəsindən hər hansı mənada istifadə edilməklə) təltif növü kimi təsis oluna bilməz.

İctimaiyyəti diqqətli olmağa çağırır, bu cür əməllərlə məşğul olan QHT-ləri qanunla qadağan olunan fəaliyyətdən çəkinməyə, məsələnin hüquqi məsuliyyətini dərk etməyə dəvət edirik", - deyə QHT-lərə Dövlət Dəstəyi Agentliyinin bəyanatında vurğulanıb.

**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi**

Göründüyü kimi, belə hallar yolverilməzdir və ümumilikdə, Azərbaycanın vətəndaş cəmiyyəti sektoru üçün neqativ təzahür yaradır. Bunu aradan qaldırmaq üçün hər bir kəs - istər QHT sektorunun nümayəndələri, istərsə də digər fərqli peşə sahibləri birgə mübarizə sərgiləməlidirlər.

***SADİQ***

# Fakt və sübut: Ermənistan konstitusiyası legitim deyil

Bölgədə əsaslı və dayanıqlı sülhün formalaşması üçün nəzərdə tutulan şərtlərin ən ümdəsi Ermənistanın konstitusiyasında zəruri dəyişikliklərdir. Ermənistanın Müstəqillik Bəyannaməsi əsasında yazılan konstitusiya 1995-ci il iyulun 5-də qəbul edilib. Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR-ə yenidən birləşmək haqqında" birgə qondarma qərardan bəhs olunur. Yəni rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv km-lik Azərbaycan torpağına iddia ortaya qoyur.

Azərbaycanın isə məsələyə münasibəti birmənalıdır. Dayanıqlı sülh yalnız və yalnız Ermənistanın əsas sənədində dəyişiklik edildikdən sonra imzalanacaq. Artıq bir müddətdir ki, Ermənistanda Konstitusiya dəyişikliyi ilə bağlı məsələ müzakirə olunur. Qeyd edək ki, Ermənistanın ayrı-ayrı şəxsləri bu dəyişikliyin həm zəruri, həm də vacib olduğunu dəfələrlə dilə gətirib -baş nazir Nikol Paşinyan, XİN rəhbəri Ararat Mirzoyan öz müsahibələrində etiraf ediblər ki, bu məsələ öz həllini tapmalıdır.



Məsələnin isə bir həlli var - Konstitusiyada yer alan bu əsassız iddiaların aradan qaldırılması. Bunun üçün isə Ermənistanda referendum keçirilməli, həmin müddəaların düzəldilməsi gərəkir. Qeyd edək ki, artıq İrəvanda muvafiq Komissiyanın iclasları keçirilir, orada Konstitusiya İslahatları Şurasının üzvlərinin təklifləri müzakirə olunur. Ermənistanın ədliyyə naziri Qriqor Minasyan konstitusiya islahatlarından danışarkən bildirib ki, müzakirələrdə Referendumla deyil, konkret maddələrin dəyişdirilməsi təklif olunub. "Bu yeni bir ideya, yeni bir fikirdir ki, biz onu müzakirə edəcəyik. Artıq şura qərar verəcək. Konstitusiya referendumunun 2027-ci ildə keçiriləcəyi ilə bağlı ilkin qavrayış var.

O vaxta qədər hər şeyi ətraflı şəkildə, ictimai müzakirələr, peşəkar ictimaiyyətlə iş vasitəsilə etmək üçün kifayət qədər vaxtımızın olması vacibdir. Şuranın özü müxtəlif layihələrə cəlb olunmuş insanlardır, onlar hər şeyi sakit və ətraflı şəkildə təhlil edə biləcəklər.

Artıq səs verdiyimiz və müzakirə etdiyimiz məsələlər var, lakin hələ çox iş görülməlidir. Demək olar ki, yaxın zamanda yeni konstitusiyanın müzakirəsinə start veriləcək", - deyə Minasyan bildirib.

Nəzərə alsaq ki, dəyişiklik bir sıra müddəalardan, xüsusilə də, preambuladan ibarətdir, prosesin referendumla deyil, fərqli yollarla tənzimlənmə mexanizmi varmı?

Məsələ ilə bağlı fikirlərini bölüşən politoloq Yeganə Hacıyeva bildirib ki, dünyanın istənilən ölkəsində, Konstitusiyaya əsaslanan istənilən idarəçilikdə Konstitusiya dəyişikliyi və ya düzəlişi ümumxalq səsverməsi - referendumla öz həllini tapır: "Konstitusiya dəyişikliyi deyiləndə təbii ki, bu sənəddə yer alan müəyyən maddələr nəzərdə tutulur və mövcud sənədin üzərində iş aparılır. Bu iş aparılarkən yeni siyasi-ictimai şərtlər, çağdaş faktorlar nəzərə alınır. Bütün hallarda bu proses referendumla öz həllini tapır. Dövlətin rəhbərinin səlahiyyətləri daxilində Konstitusiya dəyişikliyi etmək kimi bir imtiyaz yoxdur. Sadəcə olaraq, təkliflər irəli sürülə bilər ki, yekun olaraq bu təkliflər də ümumxalq səsverməsi ilə öz həllini tapar".

Y.Hacıyeva Ermənistanın hazırda vaxt qazanmaq üçün çalışdığını dilə gətirib. Referendumun keçirilməsinin müəyyən zaman alacağını söyləyən politoloqun fikrincə, referendum zamanı hüquqi aspektlərin dəyərləndirilməsindən daha vacib olan məsələ ictimai legitimliyin qazanılmasıdır: "İnformasiya təminatı həyata keçirilməli, cəmiyyət məlumatlandırılmalıdır. Ermənistanın nümunəsində cəmiyyət bu dəyişikliyi həzm etməlidir. Proseslər onu göstərir ki, Ermənistianda cəmiyyət konstitusiyanın dəyişilməsinə hazır deyil. Buna təktərəfli qaydada baş nazir də qərar verə bilməz".

Bütün bunlarla yanaşı isə Ermənistandakı vəziyyət öz analogiyalarından fərqlənir. "Bu göstəricilər ümümxalq iradəsi olan ölkələr üçün keçərlidir. Ermənistanda isə ümumxalq iradəsi yoxdur. Çünki bu xalq seçkidə yalnız müharibə mesajları verən şəxsi dəstəkləyir, sonradan həmin adam müharibəni uduzur, uduzan şəxs müharibəni bitirməklə bağlı mesajlar verir və xalq onu yenidən dəstəkləyir. Bir sözlə, Ermənistan cəmiyyəti özünün sərbəst fikri və iradəsi olmayan cəmiyyətdir. Nikol Paşinyan referendum keçirmədən Konstitusiya dəytişikliyi etsə belə, ona qarşı güclü dirəniş olmayacaq", - deyən Y.Hacıyeva əlavə edib ki, istənilən ölkənin Konstitusiyasının preampulasında vacib oriyentirlər yer alır. Məhz Konstitusiya buradan yola çıxaraq preambulada göstərilən vektor, hədəf üzrə dövlətin idarəçilik sənədinə çevrilir: "Ermənistanın Konstitusiyasının preambulasında isə 1988-ci ildə "müstəqilliyini" elan etmiş qondarma rejimin "bəyannaməsi" əlavə edilib. Bu qondarma rejim isə 2023-cü ilin sentyabrında ləğv edilib, onun "başçısı" xuntanın ləğvini bəyan edib. Bu, fakt artıq Ermənistan konstitusiyasını qeyri-legitim edir. Hazırkı dövrdə Ermənistan Konstitusiyası Nikol Paşinyan istəsə də, istəməsə də, təklif etsə də, etməsə də, dəyişməlidir. Çünki legitim konstitusiya deyil".

***P.İSMAYILOV***

# Qəzzada atəşkəs mesajları...

## Vaşinqton münaqişə tərəfləri ilə 18 bəndlik planı razılaşdırıb

Qəzza zolağında atəşkəs bərqərar olur. Artıq ABŞ-ın 18 bənddən ibarət yeni atəşkəs planı faktiki olaraq tərəflərlə 90 faiz razılaşdırılıb. Bu barədə ABŞ administrasiyasının yüksək rütbəli rəsmisi anklavda atəşkəs danışıqları ilə bağlı jurnalistlər üçün keçirilən xüsusi onlayn brifinqdə bildirib. "Sövdələşmədə, ümumilikdə, 18 bənd var. Onlardan 14-ü tamamlanıb və deməliyəm ki, sövdələşmə üzrə əvvəlki təkliflərlə eynidir. Bir bənddə sırf texniki düzəliş var. Geri qalan üç paraqraf isə iyulun 2-də HƏMAS-ın bəyanatında deyildiyi kimi, hələ də müzakirə edilməli olan əsir və girovların mübadiləsi ilə bağlıdır. Beləliklə, faktiki olaraq, bu müqavilənin 90%-i artıq razılaşdırılıb. Razılaşdırılan bəndlər, həmçinin HƏMAS-ın öz təklifində irəli sürdüyü humanitar yardımlar üçün şərtləri də nəzərdə tutur", - deyə ABŞ rəsmisi bildirib.

ABŞ administrasiyasının rəsmisi, həmçinin onu da qeyd edib ki, saziş üç əsas komponentdən ibarətdir. Bunlardan birincisi, humanitardır və Qəzza sakinlərinə şamil olunur. İkincisi, əsirlərin dəyişdirilməsi, yəni girovların fələstinli məhbuslarla dəyişdirilməsini, üçüncü hissə isə atəşkəs razılaşmalarının necə olacağını əhatə edir.

### HƏMAS xəbərdarlıq etdi...

Vurğulandığı kimi, ABŞ-ın atəşkəs planı hər iki tərəflə razlaşdırılıb - Fələstindəki HƏMAS hərəkatı israillilərə ünvanlanan videomüraciət yayıb. Həmin videoda "Qərar sizindir... Hücumlar dayansa, əsirlər sağ-salamat qayıdacaqlar" - deyilir.

Bəyanatda, həmçinin Qəzza zolağına qarşı hücumların davam etməsi halında israilli məhbusların diri qayıtmayacaqları vurğulanıb. "Netanyahunun hakimiyyətdə qaldığı hər gün yeni bir tabut mənasına gələ bilər. Hücum davam edərsə, onların taleyi naməlum qalacaq".

Bu amil razılaşmanın tam şəkildə həyata keçməsi üçün bütün tərəflərin üzərinə düşən və ya götürdüyü öhdəliyi yerinə yetirməsi anlamını ortaya qoyur...



### ABŞ-ın Yaxın və Orta Şərqdəki mövcudluğu...

Bu fakt bir daha onu göstərir ki, ABŞ-ın bölgədəki "təmsilçiliyi" davam edir. Qəzza problemi başlamamışdan öncə, konkret ötən ilin yayında ABŞ Yaxın və Orta Şərqdən tam çəkiləcəyini bildirirdisə, bu gün həmin məsələlər artıq ikinci plana keçirilir. Tam əksinə, Vaşinqton Yaxın və Orta Şərqdə mövcudluğunu daha da "dərinləşdirmək niyyətindən danışır. Belə ki, ABŞ administrasiyasının yüksək rütbəli rəsmisi Qəzza zolağında atəşkəs danışıqları ilə bağlı jurnalistlər üçün keçirilən xüsusi onlayn brifinqdə ölkəsinin lazım gələcəyi təqdirdə Yaxın Şərqdə hərbi mövcudluğunu azaltmağa və ya artırmağa hazır olduğunu açıqlayıb. "Atəşkəs və girovların azad edilməsi istiqamətində işləyərkən, çəkindirmə məqsədilə hərbi mövcudluğu qoruyuruq. Bu mövcudluq regiondakı hadisələrə və digər şərtlərə görə zamanla azalacaq və ya artacaq", - deyə o bildirib.

Onun sözlərinə görə, Yaxın Şərqdə vəziyyət gərginləşəndən bəri ABŞ münaqişənin genişlənməsinin qarşısını almağa çalışır.

Göründüyü kimi, Vaşinqton strateji regionlardan sayılan Yaxın və Orta Şərqi nəzarətdən çıxarmaq fikrindən uzaqdır. Yəqin ki, yekun qərar bu ilin noyabrında baş tutacaq prezident seçkiləri zamanı bəlli olacaq.

***SADİQ***

# “Dönüş nöqtəsi”ndən 100 illiyə...

## Misir Prezidenti 12 ildən sonra Ankarada

Xəbər verildiyi kimi, sentyabrın 4-də Misir prezidenti Əbdülfəttah əs-Sisi Türkiyəyə səfər edib. Səfər bir sıra xüsusiyyətlərinə görə, mühüm əhəmiyyət daşıyır. Ən əsası isə Əbdülfəttah əs-Sisi 12 ildən sonra Ankaranı ziyarət edən Misir prezidenti oldu.

Qeyd edək ki, Türkiyə Cümhuriyyəti ilə Misir arasında ilk müasir diplomatik əlaqələr 1925-ci ildə qurulub. Buna qədər yüz illər ərzində Misir Osmanlı imperiyasının tərkibində inzibati ərazi vahidi kimi təmsil olunub. 1948-ci ildə isə Qahirədə ilk Türkiyə səfirliyi fəaliyyətə başlayıb. Misirdə sosialist rejimi qurulduqdan sonra Türkiyə 1961-1963-cü illər arasında diplomatik əlaqələri dondurub - münasibətlər 1963-cü ildə yenidən bərpa olunub. 2005-ci ilin dekabrında iki ölkə arasında azad ticarət sazişi imzalanıb.

### 13 il davam edən gərginlik başa çatdı

İki ölkə arasında sonradan bir sıra istiqamətlərdə mühüm dostluq və əməkdaşlıq əlaqələri qurulub. 2013-cü ildə Misirdə baş verən hadisələrdən sonra iki ölkə arasında münasibətlər gərginləşib və diplomatik əlaqələr müvəqqəti işlər vəkili səviyyəsinə düşüb. Sonrakı dövrlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və həmin dövrdə ölkənin Baş nazir olmuş Binəli Yıldırım bu prosesi çevriliş kimi qiymətləndirmişdilər. Misir isə Türkiyəni onun daxili işlərinə qarışmamağa çağırıb. 2016-cı ildə Baş nazir Binəli Yıldırım mövcud vəziyyətin iqtisadi əməkdaşlığa böyük maneə olmadığını bildirərək yenidən müsbət əlaqələrin qurulması perspektivinin mümkünlüyünü önə sürdü - bunun qarşılığında isə Misir yaranan bu müsbət impulsu dəyərləndirərək Türkiyədən mövcud Misir hökumətini qəbul etməsini istədi. 2022-ci ilin noyabrında Türkiyə Prezidenti Ərdoğan və Misir Prezidenti Sisi Qətərdə keçirilən 2022 FIFA Dünya Kubokunun açılış ziyafətində ilk dəfə görüşdülər. Bu ilin fevralında isə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Misirə rəsmi səfər edib.



### Diplomatik münasibətlərin 100 illiyi qeyd ediləcək

Əs-Sisinin Ankara səfəri isə bir sıra nüansları ilə seçilirdi. Misir prezidentinin Türkiyəyə 12 illik aradan sonra edilən səfəri zamanı iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün mühüm mesajlar verilib. Prezident Ərdoğan görüşlərdən sonra Beştəpədə təşkil edilən ortaq mətbuat konfransında bir sıra məsələlər barədə açıqlama verib. O, fevral ayında Qahirəyə səfərini Misir ilə münasibətlərdə yeni dönüş nöqtəsi adlandırıb: “O vaxtdan bəri biz əməkdaşlığımızı və dialoqumuzu ən yüksək səviyyədə saxlamışıq. Biz hər sahədə inkişaf edən əməkdaşlığımızı əziz qardaşımın cavab səfəri ilə daha da irəli aparırıq. Bizim Misirlə əsrlərə gedib çıxan ortaq tarix və sıx dostluq əlaqələrimiz var. Gələn il biz diplomatik münasibətlərimizin 100 illiyini qeyd edəcəyik. Biz bəşər tarixini formalaşdıran sivilizasiyaların beşiyi olmuş iki qədim ölkəyik”.

### Ticarət dövriyyəsinin 15 milyarda çatdırılması hədəflənib

Prezident Ərdoğan qeyd edib ki, fevral səfəri zamanı iki ölkə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yenidən strukturlaşdırılması barədə qərar verilib. “Bu mexanizmin ilk iclasını bu gün (sentyabrın 4-də) keçirdik. Birgə bəyannaməmizlə sənaye, ticarət, müdafiə, səhiyyə, enerji və ətraf mühit daxil olmaqla bütün sahələrdə əməkdaşlığımızı inkişaf etdirmək iradəmizi təsdiqlədik. Ticarət və iqtisadiyyat əməkdaşlığımızın ən mühüm istiqamətlərini təşkil edir. Biz son 10 ildə Misirin ən yaxşı 5 ticarət tərəfdaşı arasında olmaqda davam etmişik. 5 il ərzində ölkələr arasında ticarət dövriyyəsinin həcmini 15 milyard dollara çatdırmağı hədəfləyirik. Türkiyəli iş adamları Misir iqtisadiyyatına mühüm töhfələr verirlər. Biz sahibkarlarımızı investisiyalarını daha da artırmağa həvəsləndirir, misirli investorları da ölkəmizdə salamlayırıq. Misirlə həm də enerji sahəsində əlaqələrimizi yaxşılaşdırmaq istəyirik. Qardaş Misir xalqı türk mədəniyyətinə böyük əhəmiyyət verir”, -deyən Prezident Ərdoğan iki ölkə arasındakı əlaqələrin turizm sahəsində də müsbət dinamika ilə özünü göstərəcəyinə inandığını önə çəkib.

### Yaxın və Orta Şərq müzakirə olunub

Vurğulayaq ki, səfər zamanı ölkə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclası keçirilib. İki ölkə arasındakı əməkdaşlığın bir hissəsi kimi Türkiyə pilotsuz təyyarələrinin Misirə tədarükü ilə bağlı razılığın əldə olunması da planlaşdırılır. “Milliyet” qəzetinin məlumatına görə, əs-Sisi ilə türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanın danışıqlar proqramında əsas məsələlərdən biri də Fələstin-İsrail münaqişəsinin həlli olub. Tərəflər Şərqi Aralıq dənizindəki vəziyyəti, Liviya və digər regional məsələləri də ətraflı müzakirə ediblər.

*S.İSMAYILZADƏ*

---

# Donald Trampdan xəbərdarlıq...

## ABŞ-ı “Böyük böhran” gözləyirmi?

**ABŞ-da bu ilin noyabrında keçiriləcək prezident seçkiləri ilə əlaqədar siyasi mübarizə daha da güclənməkdədir. Mübarizə ölkənin hazırkı -vitse-prezidenti, demokratların namizədi Kamala Harris və keçmiş prezident, respublikaçıların namizədi olan Donald Tramp arasında gedir. Əvvəlcə, ABŞ Prezidenti Co Bayden seçkidə iştiraka qərarlı olsa da, debat zamanı Trampa uduzması, üstəlik respublikaçı namizədə qarşı sui-qəsd törədilməsi Baydenin fikrini dəyişməyə sövq etdi. O, estafeti Kamala Harrisə ötürdü.**

### Namizədlərin reytinqi bərabərdir

ABŞ-ın vitse-prezidenti Kamala Harris namizəd olduqdan sonra demokrat və respublikaçı namizədin reytinqi demək olar ki, bərabərləşib. Bugünlərdə ABŞ-da “The Wall Street Journal”ın keçirdiyi son sorğuda seçki mübarizəsinin liderini müəyyən etmək mümkün olmayıb. Seçicilər arasında aparılmış sorğuya əsasən, Harris 48 faiz, Tramp isə 47 faiz seçicinin rəğbətini qazanıb. Sorğuda Demokratların 90 faizi öz yeni namizədləri ilə bağlı həvəsli olduqlarını desələr də, Respublikaçılar arasında bu rəqəm 82 faizdir.

Sorğuda Kamala Harrisin mənfi və müsbət reytinqi bərabərdir. Rəyi soruşulanların 49 faizi onun barəsində müsbət, 49 faizi mənfi düşünür. İyul sorğusunda bu rəqəm müvafiq olaraq 46 faizə qarşı 52 faiz təşkil edirdi. Trampla bağlı isə müsbət düşünənlər 45 faiz, mənfi düşünənlər isə 53 faizdir. İyul ayında bu göstərici 47 faiz müsbət və 50 faiz mənfi təşkil edib.

Qeyd edək ki, sorğu 24-28 avqust tarixlərində telefon və onlayn şəkildə 1500 seçici arasında keçirilib.

### Kamala Harris prezident seçilərsə...

Bu arada Respublikaçılar Partiyasından prezidentliyə namizəd Donald Tramp deyib ki, ABŞ-ın vitse-prezidenti Kamala Harris prezident seçkilərində qalib gələrsə, Birləşmiş Ştatlar 1929-1939-cu illərdəki böyük depressiya ilə müqayisə oluna biləcək iqtisadi böhranla üzləşəcək: “Əgər o, prezident olarsa, 1929-cu il kimi depressiya olacaq. Onun nə edəcəyi barədə heç bir fikri yoxdur”. Tramp əlavə edib ki, həmçinin ölkə tarixdə ən böyük vergi artımı ilə üzləşəcək.

Bəs, Trampın bəhs etdiyi 1929-cu ilin böhranı hansı səbəblərdən baş vermişdi? Həqiqətən də ABŞ anoloji böhranı yaşaya bilərmi? Qeyd edək ki, tarixə “Böyük böhran” adı ilə düşmüş bu hadisə 1929-cu ildə başlanmış və 1939-cu ilə qədər davam etmişdi. Bu, ümumilikdə, dünya iqtisadi böhranı kimi xarakterizə olunur. “Böyük böhran” ABŞ-a, Kanadaya, Böyük Britaniyaya, Almaniyaya və Fransaya daha çox təsir etdi, amma başqa dövlətlərdə də hiss olundu. Bu böhrandan ən yüksək dərəcə sənaye şəhərləri zərər çəkdi.

Xatırladaq ki, Birinci Dünya müharibəsində iştirakçı dövlətlərlə yanaşı müharibəyə kənardan qatılan ABŞ, müharibədən sonrakı illərdə dünyada əhəmiyyətli bir prestij qazandı. Bu müddətdə ABŞ xüsusilə Avropa ölkələri və inkişaf etməkdə olan ölkələr üçün bir cazibə mərkəzi halına gəldi. Beləcə dünya iqtisadiyyatında əhəmiyyətli rol qazanmağa başlayan ABŞ-da müharibə müddətində əhəmiyyətli dərəcədə qızıl rezervi yığıldı və böyük sərmayə fondları bu ölkədə cəmlənməyə başladı. Səhm qiymətlərindəki həddindən artıq yüksəlmə səbəbilə, Federal Rezerv Bank spekulyativ artımı dayandırmaq üçün 1929-cu ilin yay aylarında faiz üçot dərəcəsini 7 faizdən 15 faizə yüksəltdi.

Qərb ölkələrində 1926-cı illərə qədər yeni görüşlər və sürətli texnoloji inkişaflarla avtomobil, tikinti və energetika kimi sektorlar başda olmaqla yaşanılan iqtisadi böyümə də birjalarda yüksəlişlərə əhəmiyyətli səbəb oldu. Ancaq inkişaf edən sənayelərdə yaşanan iqtisadi böyümə 1926-cı illərdən sonra yavaşlamağa başladı, 1929-cu illərdə də tənəzzül nöqtəsinə çatdı. Bu durğunluğun arxasından, dünyaya təsir edəcək olan iqtisadi böhran Nyu-York Birjasında çöküşlə özünü göstərməyə başladı. Birjada səhmlər zirvədəykən, hissə sahiblərinin satışa yönəlməsi, Nyu-York Birjasının çöküşünə səbəb oldu. Birjanın çöküşünü isə bankların çöküşü davam etdirdi. Avtomobil, tikinti və elektronika sektorlarındakı şirkətlərin müflisləşməsinin arxasınca 1929-cu ilin oktyabr ayının 21-də xarici sərmayəçilər səhmlərini əllərindən çıxarmağa başladılar. Nyu-York Birjasında əhəmiyyətli azalmanın yaşandığı 24 oktyabr 1929-cu il günü “Qara Cümə axşamı” deyə adlandırıldı. Növbəti həftənin ilk günü olan oktyabr ayının 28-də Dow Jones Sənaye Ortalaması 13 faiz itkiylə 260-a, 29 oktyabrda isə təxminən 12 faiz itkiylə 230-a düşdü.





### 1929-cu il böhranı ABŞ-a necə təsir etmişdi?

ABŞ-da 1929-cu ildə başlayan iqtisadi böhranının təsirləri istehsal və məşğulluq həcmində azalma, işsizliyin artması, başda kənd təsərrüfat məhsulları olmaq üzrə qiymətlərdə azalma, mənzil sektorunda durğunluq, ölkələrin xarici ticarətində böyük borclar, dünya ticarət həcmində azalma, bank sektorunda ciddi iflaslar, ticari kreditlərin azalması və xarici sərmayə axınlarının dayanması şəklində oldu.

Əmək probleminin araşdırılması üzrə Amerika Assossiasiyası işsiz qalan əhalinin 17 milyondan çox olduğunu bildirirdi. Təxminən 2,5 milyon əhali evsiz, sığınacaqsız qalmışdı. 135 min şirkət iflasa uğradı. 1929-1933 cü illərdə 900 minə yaxın fermer təsərrüfatı iflasa uğradı. 1920-ci illərin əvvəllərində ABŞ-da 30 minə yaxın bank var idi. 1932-ci ilin oktyabrında Nevada ştatı öz ərazisindəki bütün bankları bağladı. Miçiqan ştatı da iflasdan qurtulmaq üçün bütün bankları bağladı. Ardıcıl olaraq bir çox ştat bu addımı atdı. Bu böhran digər ölkələrə də ciddi təsir etdi və dünya iqtisadi böhranı kimi tarixə düşdü.

Trampın indiki xəbərdarlığı isə bayden hakimiyyəti dövründə dolların ciddi problemlərlə üzləşməsi ilə bağlıdır. Hətta Rusiya Prezidenti Vladimir Putin də bildirib ki, indiki ABŞ hakimiyyətinin siyasəti nəticəsində bir çox dünya ölkələri qarşılıqlı ticarətdə dollardan imtina edərək milli valyutalara üstünlük verirlər. Bütün hallarda, D.Trampın bədbin proqnozunun real olub-olmamasını yaxın gələcək göstərəcək.

*N. BAYRAMLI*

---

# Qondarma “Milli şura”nın fəaliyyəti qeyri-qanunidir

## Siyasi məqsədlərə xidmət edən “qurum” heç bir hüquqi əsasa söykənmir

Ənənəvi olaraq hər seçkidən sonra özünün absurd iddiaları və “bəyanatları” ilə yadda qalan bəzi amorf təşkilatlar yenə də öz ampluasındadır. Xarici korporativ maraqların ölkə daxilindəki “dəyənəyi” kimi çıxış edən bu “qüvvələr” yenə də eyni havanı çalır - qorxaraq geri çəkildiyi, özünün gücsüzlüyünün ortaya çıxacağından ehtiyatlanaraq qatılmadığı seçkilərə qara yaxmaq, bundan öz maraqları üçün istifadə etmək, yenidən diqqət mərkəzinə düşmək və ianələr almaq üçün fürsət axtarırlar. “Milli şura” adlanan qurum isə bu yöndə daha çox canfəşanlıq edir. Əcnəbi direktivlərə əsaslanaraq xarici auditoriyalarda özünə dəstək axtaran, heç bir hüquqi əsas olmadan iddialar irəli sürən “Milli şura”nın əslində, fəaliyyəti qeyri-qanunidir. İlk növbədə, bu gün “Milli şura”nı yaradanların demək olar ki, heç biri bu “qurumda” təmsil olunmur. İkinci bir tərəfdən, hansısa partiyaların və ya siyasi birliklərin “şurası” kimi fəaliyyət göstərməli olan “qurum” bir partiyanın yedəyinə çevrilib və həmin partiya da manipulyasiya edərək bu “addan” yalnız və yalnız pul qazanmaq üçün istifadə edir. “Milli şura”nın nəinki bəyanat verməyə, hətta fəaliyyət göstərməyə belə hüquqi, mənəvi haqqı çatmır.



**Özləri deyib, özləri eşidirlər**

Məsələ ilə bağlı qəzetimizə açıqlama verən tanınmış hüquqşünas, “Konstitusiya” Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev bildirib ki, “Milli şura” 2012-ci ildə yaranan zaman orada bəzi siyasi qruplar, partiyalar təmsil olunurdu: “Qısa müddət sonra bu partiyalar oradan ayrıldı, şuranı yaradanların mütləq əksəriyyəti oranı tərk etdi. Bu gün “Milli şura”da faktiki olaraq hər hansı bir siyasi qüvvə təmsil olunmur. Orada ayrı-ayrı şəxslərin təmsilçiliyindən söhbət gedir ki, onlar da ara-sıra epizodik, fraqmentlər olaraq ortaya çıxırlar. Hazırda bu qurum qeyri-ciddi təsir bağışlayır. Bu gün milli şura deyilən qurum və ya təsisat Azərbaycandakı siyasi proseslərə hər hansı bir təsir etmək imkanında və gücündə deyil. Söylədiyi fikirlər isə yalnız ənənəvi fikirlərdir. Özləri deyib, özləri eşidirlər”.

**“Milli şura” da yoxdur**

Ə.Nuriyev bildirib ki, “Milli şura” yaranan zaman mövcud olan format hazırda yoxdur. Bu mənada həm də demək olar ki, “Milli şura” da yoxdur. “Çünki “Milli şura” adətən, müxtəlif qüvvələrin bir araya gəlməsindən, bir arada olmasından formalaşır. Bunların “Milli şura” adlandırdıqları formatda nə bir siyasi qüvvə, nə də tanınmış siyasi xadim təmsil olunmur. Bir təşkilat və onun ətrafındakı bir neçə nəfər orada qərar tutublar. Onlara isə “Milli şura” demək olmaz. Olmayan bir şeyin adından bəyanatlar vermək yalnız və yalnız kiminsə mövcudluğunu yenidən gündəmə gətirmək üçündür”, - deyən Ə.Nuriyev əlavə edib ki, hüquqi baxımdan hər hansı şəxslər qrupu və ya təşkilatlar qrupu bir araya gəlib hər hansı bir qurumu təsis edirlərsə, həmin qurumun fəaliyyət göstərməsinin iki forması var: “Birincisi, hüquqi şəxs kimi fəaliyyət göstərməsidir. Belə olan halda mütləq qeydiyyatdan keçməlidir. Hüquqi şəxs olaraq hansı formatda fəaliyyət göstərəcək? Çünki siyasi partiyaların birliyi deylən bir qurumun yaradılmasını tənzimləyən hər hansı bir qanunverici akt yoxdur. Bu qurumlar yalnız seçkilər zamanı siyasi partiyaların bloklarının yaradılması ilə meydana gəlir. Onda digər qeyri-kommersiya təşkilatı kimi format qazana bilər ki, bu da QHT-nin bir növü kimi izah edilir. Bu zaman da müxtəlif təşkilatlar bu şuranın yaranmasında iştirak etməlidirlər. İndiki halda həmin şurada bu əlamətlər belə yoxdur. Onlar təsis olunma barədə də qanunvericiliyin tələbi ilə Ədliyyə Nazirliyinə xəbər verməlidirlər”.

*MƏNSUR*

# Tarix təkrarlanacaqmı?

**İki ildən çoxdur ki, davam edən Rusiya - Ukrayna müharibəsinin sonu görünmür. Hər ötən gün isə müharibə yeni faciələrə səbəb olur - tərəflərin canlı qüvvə və texnika itkisi artır, dağılan yaşayış məntəqələrinin coğrafiyası genişlənir. Əvvəllər yalnız Ukrayna ərazisində dinc sakinlər doğma ev eşiklərini tərk etmək məcburiyyətində qalırdılarsa, artıq Rusiya ərazisində də insanlar eyni problemlə üzləşirlər. Həmçinin müharibə uzandıqca yeni təhdidlər meydana çıxır.**

**1943-cü ilin Kursk uğrunda döyüşdən bu günə...**

## Kurskda nə baş verir?

### Müharibədə yeni səhifə - Kursk döyüşləri

Cari il avqustun 6-da Rusiya-Ukrayna müharibəsində yeni bir səhifə açıldı. Qeyd olunan tarixdə Ukrayna Silahlı Qüvvələrinin təxminən 1000 nəfərdən ibarət bölmələri Rusiyanın Kursk vilayətinə hücum ediblər. Mediada və sosial şəbəkələrdə yayılan ilkin məlumatlara görə, ukraynalılar elə həmin gün sərhəddən vilayətin mərkəzinə doğru 12 kilometrə qədər irəliləyərək, 10 yaşayış məntəqəsini ələ keçiriblər. Sonrakı günlərdə Ukrayna Kursk vilayətində irəliləməsini və yeni yaşayış məntəqələrini ələ keçirməsini davam etdirdi. "Ukrayna qüvvələri Kursk vilayətində 100 yaşayış məntəqəsinə nəzarət edir". Bunu Ukrayna Silahlı Qüvvələrinin Baş komandanı Aleksandr Sırski deyib. "Biz Rusiya qoşunlarına canlı qüvvə və texnika baxımından əhəmiyyətli zərbə vuraraq irəliləməyə davam edirik. Bu gün biz 1294 kvadrat kilometr ərazini və oradakı 100 yaşayış məntəqəsini nəzarətə götürmüşük",-deyə Sırski bildirib.

Ukrayna Silahlı Qüvvələrinin Baş komandanı qeyd edib ki, ölkəsinin məqsədi təhlükəsiz zona yaratmaq, Sumı vilayətində obyektləri qorumaq və Rusiya Federasiyası ərazisindən Ukraynanın atəşə tutulmasını dayandırmaqdır. "Düşmən bizə müqavimət göstərməyə çalışır, qoşunlarını başqa istiqamətlərdən çıxarır. Bununla da onları zəiflədir və irəliləyən qrupumuz ətrafında müdafiə halqası yaratmağa, əks-hücum tədbirləri planlaşdırmağa çalışırıq", - deyə Ukrayna hərbçisi vurğulayıb. General əlavə edib ki, Ukrayna ordusunun bundan sonrakı fəaliyyəti cəbhədəki əməliyyat şəraitindən asılı olacaq.

Ukrayna Prezidenti V.Zelenski Kursk əməliyyatı ilə ölkəsinin bufer zonaları yaratmaq imkanı əldə etdiyini bildirib. O vurğulayıb ki, əməliyyatlar ən yüksək formada davam edir: "Kursk əməliyyatındakı hərbçilərimiz öz vəzifələrini yerinə yetirir və planlaşdırıldığı kimi davam edir. Pokrovski və Toretsk istiqamətindəki çətinliklərə gəlincə, düşünürük ki, Kursk əməliyyatı da buna təsir edə bilər".



Rusiyanın hərbi-siyasi rəhbərliyinin Ukrayna Silahlı Qüvvələrinin Kursk əməliyyatına başlamasına münasibəti də gözlənildiyi kimi, kifayət qədər sərt olub. Avqustun 7-də Rusiya Prezidenti Vladimir Putin Kurskdakı vəziyyət ilə bağlı fövqəladə müşavirə keçirib. Dövlət başçısı rəsmi Kiyevi Kursk vilayətində mülki və yaşayış məntəqələrini raket atəşinə tutmaqda günahlandırıb. Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev özünün "Telegram" səhifəsində bildirib ki, "Ukrayna Silahlı Qüvvələrinin Kursk vilayətinin sərhədindəki hərəkətlərindən dərs çıxarmaq və düşməni amansızcasına məğlub etmək lazımdır".

Cavab tədbirləri olaraq Rusiya qısa müddətdə bölgədən mülki əhalini təxliyyə edib, həmçinin müqavimət üçün mövqelər yeni qüvvələrlə möhkəmləndirilib. Kursk əməliyyatının başladığı günün ertəsi - avqustun 7-dən Kursk ərazisində fövqəladə vəziyyət rejimi tətbiq olunub.

Kurskda baş verənlər Rusiyanın hərbi-siyasi imicinə mənfi təsir göstərsə də, bunu Ukraynanın mütləq qələbəsi kimi dəyərləndirmək də mümkün deyil. Təsadüfi deyildir ki, artıq əməliyyatın ilk günlərindəki hücum, yeni ərazilərin ələ keçirilməsi intensivliyi müşahidə edilmir. Verilən məlumatlara görə, Ukrayna Silahlı Qüvvələri son günlərdə ən yaxşı halda 2-5 kilometr məsafədə irəliləməyə müvəffəq olurlar. Böyük ölçüdə Rusiya Kursk vilayətində Ukrayna ordusuna qarşı müqaviməti təmin etməyə, hətta bəzi yaşayış məntəqələrini geri qaytarmağa nail olub.

Hazırda Ukraynada Kursk döyüşlərindəki üstünlüyün eyforiyası fonunda Şərq cəbhəsindəki uğursuzluqlar, burada Rusiyanın hücumların intensivliyini artırması ciddi narahat-

### İkinci cəbhə niyə açıldı?

Kursk döyüşləri barədə bəhs edərkən belə bir suala cavab vermək lazım gəlir: Ukraynanın Kurskda ikinci cəbhə açmaqda məqsədi nədir? Bu, strateji hədəfdir, yoxsa taktiki gediş? Rusiya və Ukraynanın qüvvələr balansını müqayisə etdikdə ikinci variant daha real görünür. Əslində, Ukrayna tərəfindən belə bir həmlənin olacağı istisna edilmirdi. Ancaq müharibənin ilkin mərhələsində rəsmi Kiyevin Rusiya ilə digər səhəd bölgələrində əks-hücum əməliyyatları həyata keçirməyə imkanları yox idi. Bu ölkəni dəstəkləyən Qərb dövlətləri tədarük etdikləri silahlarla Rusiya ərazilərinə atəş açmağa razılıq vermirdilər. Ancaq artıq belə bir razılıq əldə olunub. Bəzi Qərb dövlətləri Ukraynaya göndərdikləri silahlarla Rusiya ərazilərini hədəfə almaq qadağasını götürüblər. Beləliklə də, rəsmi Kiyevin müharibəni həm də Rusiya ərazisinə keçirmək imkanı yaranıb və bu imkandan istifadə olunan ilk məkan Kursk vilayətidir. Ukraynanın hərbi-siyasi rəhbərliyi Kursk əməliyyatlarına başlamaqla Rusiyanın Şərq cəbhəsində hücumlarının intensivliyini azaltmaq məqsədinə nail olmaq istəyir. Düşünülmüş plana əsasən rəsmi Moskva Kurskun müdafiəsi üçün qüvvələrin bir qismini Şərq cəbhəsindən buraya yönəldə bilərdi. Hələlik bunun baş vermədiyini izləyirik.

Eyni zamanda, Kursk əməliyyatının genişmiqyaslı hücumun başlanğıcı olacağını düçünmək də sadəlövhlük olardı. Bu istiqamətdə hücum xəttinin genişlənməsi, döyüşlərin Rusiya ərazilərinin dərinliklərinə daşınması nəzəri çəhətdən mümkün görünsə də, indiki halda Ukraynanın bunu reallaşdırması üçün fiziki imkanları yoxdur. Ordunun bir hissəsi Şərq cəbhəsindədir. Hücumun dəstəklənməsi, yeni mövqelərdə möhkəmlənmək üçün isə canlı qüvvə və hərbi texnika sarıdan daha güclü təminatlar lazımdır.




### Ukrayna qoşunlarının öz ərazilərində əks-hücuma keçməsi çətinləşir

lıq və məyusluq doğurur. Verilən məlumatlara görə, Rusiya ordusu avqustda Ukrayna ərazisinin 477 kvadrat kilometrinə qədər irəliləyib. Bu da 2022-ci ilin oktyabrından bəri ən böyük aylıq artım olub. Bu barədə Müharibə Tədqiqatları İnstitutunun (ISW) analitiklərinin təhlilində deyilir. Son bir ayda Rusiya ordusu əsasən Donetsk vilayətinin şərq bölgələrində sutkada 15 kvadrat kilometr irəliləyib. Əsas qüvvələr Ukrayna qoşunlarının böyük təchizat mərkəzinin yerləşdiyi Pokrovsk şəhəri yaxınlığında cəmləşib. Ötən bazar günü rus qoşunları şəhərə yeddi kilometrdən də az bir məsafədə yaxınlaşıb.

Sonuncu dəfə Rusiya silahlı qüvvələri bir ay ərzində bu qədər ərazini 2022-ci ilin oktyabrında Ukraynanın Xarkov ətrafında böyük əks-hücumuna cavab olaraq ələ keçirmişdi. Analitiklər qeyd edirlər ki, hazırda Ukrayna qoşunlarının öz ərazilərində əks-hücuma keçməsi çətindir. Sentyabrın 1-nə olan məlumata görə, Rusiya Ukrayna ərazisinin 66 266 kvadrat kilometrinə nəzarət edir. Ukraynanın Kurskdakı uğurları təqdim olunan bu kimi faktlarla müqayisədə çox kiçikdir. Hazırda Ukrayna qoşunları Rusiya ərazisində cəmi 1150-1300 kvadrat kilometr əraziyə nəzarət edir.

Kurskda açılan cəbhə ikinci Dünya müharibəsində baş vermiş Kursk döyüşünü yada salır. Həmin döyüşlər müharibədə dönüş nöqtəsi oldu. Belə ki, 1943-cü ilin avqustunda keçmiş SSRİ-nin Silahlı Qüvvələri Almaniya qoşunlarını Kurskda məğlub etdikdən sonra Berlinə qədər sürətlə irəliləməyi bacarmışdı. Təxminən 80 ildən sonra Kursk avqust ayında yenidən döyüş meydanına çevrilib. Tarix təkrarlanacaqmı?

***Mübariz FEYİZLİ***

# Makrona Yelisey Sarayının qapısı göstərilir...

**Hər ötən gün Fransada siyasi böhran bir qədər də dərinləşir. Avropa Parlamentinə və Milli Assambleyaya növbədənkənar seçkilərdə mərkəzçi adlandırılan "İntibah" partiyasının məğlubiyyətindən sonra Makron iqtidarının başı qeylüqaldadır. Analitiklərin qənaəti belədir ki, hazırda ölkədə Yelisey Sarayının sahibinin 2027-ci il prezident seçkilərindən daha tez dəyişməsi üçün şərait formalaşıb. Bütün şərtlər bunu diktə edir. Bildirilir ki, mövcud siyasi reallıqlar fonunda hazırkı iqtidarın ölkəni idarə etmək limiti tükənməkdədir.**

### 81 deputatın imzaladığı impiçment qətnaməsi

Fransada hələ bundan xeyli əvvəl başlayan siyasi böhran Makron koalisiyasının - "İntibah" partiyasının Avropa Parlamentinə və Milli Assambleyaya seçkilərdə açınacaqlı məğlubiyyətə uğramasından sonra açıq müstəviyə keçib. Xatırladaq ki, Fransada iyunun 9-da Avropa Parlamentinə keçirilən seçkilərdə sağçı "Milli birlik" partiyası 31,36 faiz səs toplayaraq Makron koalisiyasını iki dəfədən çox üstələyib. Partiyasının Avropa seçkilərində iflasından sonra Makron parlamentin aşağı palatasını buraxaraq növbədənkənar seçkilər elan etdi. Bu qərar əslində, Makronun revanş cəhdi idi. Ancaq Makronun ikinci seçki cəhdi də uğursuz oldu. Milli Assambleyaya seçkilərin həm birinci, həm də ikinci turunda "İntibah" partiyası məğlubiyyət acısı yaşadı. Belə ki, birinci turu iyunun 30-da, ikinci turu isə iyulun 7-də keçirilən növbədənkənar ümumi seçkilər dörd sol partiyanın yaratdığı Yeni Xalq Cəbhəsinin (NFP) qələbəsi ilə nəticələndi. Seçkilərdə solçu Yeni Xalq Cəbhəsi 178 mandatla birinci, Makron ittifaqı 163 mandatla ikinci, ifrat sağçı Milli Birlik Alyansı (MN) isə 143 mandatla üçüncü yerdə qərarlaşıb. Bu nəticələrlə heç bir partiya və ya ittifaq cəmi 577 deputatın fəaliyyət göstərəcəyi parlamentdə hökuməti qurmaq üçün tələb olunan mütləq çoxluğu əldə edə bilməyib. Parlament çoxluğu isə solçulardan ibarətdir. Hazırda solçu partiyalar 193 mandatla parlamentdəki ən böyük siyasi qrupdur.

Beləliklə, Fransa tarixininin ən çox parçalanmış parlamenti formalaşıb. Məhz parlamentin solçulardan ibarət ən böyük qrupu Makron üçün başağrısına çevrilib. Bu günlərdə həmin qrupdan gələn təşəbbüs əsasında parlamentdə Makronun Fransa prezidentliyindən uzaqlaşdırılmasını tələb edən qətnamə imzalanıb. Sənədin altında 81 deputatın imzası var. Onlardan 72-sinin "Əyilməz Fransa" partiyasının deputatları olduğu bildirilir.

### Makronun qorxulu röyası - hökumətə də solçular rəhbərlik edərlərsə...

Tez-tez demokratiya, hüququn aliliyi ilə bağlı siyasi bəyanatlar verməsinə rəğmən, Makronun hakimiyyət hərisliyi ortadadır və bu, açıq-aydın hiss olunur. O, əlindəki rıçaqlardan istifadə etməklə hakimiyyətinin ömrünü 2027-ci il prezident seçkilərinədək qorumaq və sonrakı mərhələdə də ölkəyə rəhbərliyi özündə saxlamağa zəmin hazırlamaqdan ötrü yollar axtarır. Elə onun Avropa Parlamentinə seçkilərdə məğlubiyyətdən sonra Milli Assambleyaya növbədənkənar seçkilər təyin etməsi də məhz bu planın tərkib hissəsi idi. Lakin proseslər əksinə cərəyan etdi və milli səviyyədə keçirilən seçkilərdəki məğlubiyyət onu sözün əsl mənasında dalana saldı. Parlamentin indiki tərkibi ilə Yelisey Sarayının burada hakimiyyətin marağında olan hansısa bir qanunu keçirəcəyi mümkünsüz görünür ki, bu da Makron iqtidarının əl-qolunun bağlanması anlamına gəlir. Yaxın perspektivdə Yelisey Sarayının fəliyyətinin iflic hala gələcəyini təxmin etmək çətin deyil.

Lakin bu da parlamentə nəzarətini itirən Makron üçün problemin hamısı deyil. Seçkilərin nəticələrinə uğun olaraq baş nazirin istefası reallaşandan sonra Makronu qayğılandıran digər əsas məsələ hökumətə kimi, rəhbərlik edəcəyidir. Onun sonuncu Fransa hökumətini oriyentasiyalı nazirlərdən formalaşdırdığını hər kəs yaxşı bilir. Yeni tərkibli parlament prezidentin hökuməti formalaşdırmaq səlahiyyətlərini əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Elə Makronun impiçment məsələsini zəruri qaydada ölkənin siyasi gündəminə daşıyan səbəb də yeni baş nazirin təyinatı ilə bağlıdır. Hazırda baş nazir təyinatı Makron üçün bir növ qorxulu röyaya çevrilib.

### Prezident baş nazir axtarışını uzadır, solçular gözləmək istəmirlər





Çıxılmaz vəziyyətdə qalan Makron baş nazir təyinatını uzatmağa çalışdı. 33-cü Yay Olimpiya Oyunları onun üçün bir fürsət oldu. O, Olimpiadanı bəhanə gətirməklə siyasi qüvvələri barışığa çağırdı. Partiyalar Olimpiadaya ev sahibliyinin məsuliyyətini, ölkənin imicini nəzərə almaqla müvəqqəti barışıq təklifini anlayışla qarşıladılar və siyasi ambisiyalardan çıxış etmədilər.

Olimpiadanın başa çatması ilə Makron üçün möhlət müddəti də bitdi. Prezident arzulamadığı reallığa qayıtmalıdır və baş nazir təyinatına imza atmalıdır. 81 deputatın impiçment qətnaməsini imzala masına səbəb də Makronun solçu blokun nümayəndəsini ölkənin baş naziri postuna təyin etməkdən görünməmiş şəkildə imtina etməsidir. Deputatlar Fransa Konstitusiyasının 68-ci maddəsinə əsaslanırlar. Bu maddə prezident öz səlahiyyətlərini pozarsa, onun vəzifəsindən kənarlaşdırılması (impiçment) imkanını nəzərdə tutur.

Makron siyasi qüvvələrin liderləri ilə məsləhətləşmələrin birinci raundundan sonra solçular tərəfindən irəli sürülən Yeni Xalq Cəbhəsi hökuməti variantını rədd edib. O, Lüsi Kastetsin baş nazir postuna namizədliyini təsdiqləməyib. Yelisey Sarayının mətbuata açıqlamasında qeyd olunub ki, ölkənin institusional sabitliyi bu variantı saxlamamağı tələb edir. Bildirilir ki, yeganə proqrama əsaslanan hökumət, NFP dərhal Milli Assambleyada təmsil olunan bütün digər qruplar tərəfindən bloklanmaya məruz qalacaq. Belə bir hökumətə qarşı çıxan 350-dən çox deputatın səs çoxluğu onun fəaliyyət göstərməsinə faktiki mane olacaq.

Fransa Prezidenti Emmanuel Makron bu vəzifəyə Mişel Barnyeni təyin edib. Qeyd edək ki, keçmiş avrokomissar Mişel Barnye daha əvvəl Fransanın xarici işlər naziri postunda çalışıb.

Solçular bu qərarı sərt tənqid edərək Makronun prezident kimi öz səlahiyyətlərini aşdığını bildirirlər. "Əyilməz Fransa" (La France insoumise-LFİ) partiyasının koordinatoru M.Bompard bunun heç bir mənası olmayan arqument əsasında həyata keçirilən qəbuledilməz anti-demokratik çevriliş olduğunu deyib. Prezidentin qərarı "institutların məntiqinə qətiyyən uyğun gəlmir, bu, son dərəcə narahatedicidir. Demokratiya prezidentin gözündə heç nə demək deyil və mən bunu son dərəcə təhlükəli hesab edirəm", - deyə NFP-nin namizədi Lüsi Kastets xəbərdarlıq edib. Ekolojist M.Tondelye isə vəziyyəti tamamilə qeyri-liberal adlandıraraq, seçkilərin nəticələrinin oğurlandığını söyləyib. "Biz bu seçkinin oğurlanması prosesindəyik. Məni ən çox qəzəbləndirən odur ki, o, sabitlikdən danışır, lakin fransızların dörddə üçü dəyişiklik istəyir. Solçu liderlər üçün baş naziri təyin etmək Emmanuel Makrondan, sonra isə yeni hökuməti senzuradan keçirib-keçirməmək isə parlamentdən asılıdır. Biz bunu sınamağa, bloklanmaya məruz qalmamaq üçün müqavilələr bağlamağa hazırıq. Əgər Lüsi Kastets baş nazir olarsa, o, danışıqlar apararaq, parlamentə güvənərək davam etməli olacağını bilir", - deyə M.Tondelye vurğulayıb.

Hazırda ölkədə yaranan büdcə kəsiri də Makron iqtidarının başı üstündə dayana başqa bir "əcəl zəngi"nə çevrlib. Əlavə gəlir mənbələrinin olmayacağı təqdirdə Fransada büdcə kəsiri 2024-cü ildə və gələn il arta bilər. Bu barədə ölkənin Maliyyə Nazirliyi qanunvericilərə ünvanladığı məktubda xəbərdarlıq edib, çünki avro zonasının ikinci ən böyük iqtisadiyyatında siyasi böhranın fəsadları daha çox hiss edilir.

Aİ-nin Parisə qarşı intizam qaydasında iddialarına da səbəb olan pisləşən maliyyə vəziyyəti növbədənkənar seçkilərdən iki ay sonra yeni hökumət qurmaq üçün mübarizə aparan Makrona təzyiqi artırır. Maliyyə kəsiri o deməkdir ki, istənilən yeni hökumət xərcləri azaltmaq və vergiləri artırmaq və ya

### Fransa hakimiyyəti üçün daha bir "əcəl zəngi"

Fransanın Aİ tərəfdaşlarının və maliyyə bazarlarının etibarını itirmək arasında çətin seçimlər etməli olacaq.

Fransa Maliyyə Nazirliyi tərəfindən parlamentə göndərilən sənəddə dövlət sektorunun büdcə kəsirinin bu il istehsal həcminin 5,6 faizinə çatması riskinin olduğu göstərilib. Müvəqqəti hökumət bundan əvvəl 5,1 faiz büdcə kəsiri planlaşdırmışdı.

Milli Assambleyanın maliyyə komitəsinə sədrlik edən solçu deputat Erik Kokerelin sözlərinə görə, gələn il hökumət 4,1 milyard avroluq büdcə kəsiri hədəfinə çatmaq üçün 60 faiz qənaət tələb edəcək, 2025-ci ildə isə bu rəqəm 6,2 faizə çata bilər.

Bir sıra əsas vergilər, o cümlədən gəlir, korporativ və satış üzrə əlavə dəyər vergiləri gözlənildiyindən də aşağı səviyyədədir. Kokerel əlavə edib ki, Fransanın Yeni Kaledoniya ərazisində təhlükəsizliklə bağlı problemi və bu il keçirilən növbədənkənar parlament seçkiləri əlavə xərclərə səbəb olub. Kokerel jurnalistlərə deyib ki, vəziyyət Makron dövründə ardıcıl vergi endirimlərinin nəticəsidir və indi xərcləri azaltmaq əvəzinə vergiləri daha da artırmaqla düzəldilə bilər.

Vəzifəsini tərk edən maliyyə naziri Bruno Le Mer bildirib ki, Fransa üçün büdcə kəsirlərinin davam etməsinin və onun nəzarətdən çıxmasının qarşısını almaq olduqca vacibdir. Həm bu il, həm də gələn il 1 faizlik iqtisadi artım proqnozlaşdıran Le Mer gəlir çatışmazlığını aradan qaldırmaq və büdcədə izafi xərcləri ödəmək məqsədilə artıq bu il üçün 16,5 milyard avro məbləğində xərcləmənin dondurulduğunu bildirib.

Fransa uzun müddətdir ki, üzv dövlətlərdən büdcə kəsirini hasilatın 3 faizindən aşağı səviyyədə saxlamağı tələb edən Aİ qaydalarını pozub. Onun ÜDM-in 110 faizini təşkil edən ümumi borcu da Aİ-nin normalarına ziddir. Makronun dövründə ev təsərrüfatları, şirkətlər və kapital gəlirləri üzrə vergi endirimləri illik gəlirləri on milyardlarla avro azaldıb. Yaranan vəziyyət də aparılan səriştəsiz və populist siyasətin nəticəsidir.

***Mübariz ABDULLAYEV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Ən başlıca vəzifəmiz!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti üzrə hazırlanmışdır**

## Xalq və dövlət maraqlarının uğurlu vəhdəti...

Milli maraqlar hər bir dövlətin fəaliyyətində təməl daşlardan biri hesab edilir. Bu baxımdan istənilən dövlətin siyasətini ictimai maraqlar müəyyən edir. Məlumdur ki, ictimai maraqlar hər bir cəmiyyəti təşkil edən fərdlərin rifahının ifadə olunduğu və çoxluğun marağını üstün sayan bir anlayışdır. Bu anlayışın tanınması, təbliği və müdafiəsi hökumət və onun strukturları tərəfindən həyata keçirilir.

Lakin müasir cəmiyyətlərdə bu məfhum daha geniş və çoxşaxəli anlam kəsb etməklə dövlət-vətəndaş münasibətlərinə birbaşa təsir gücünə malikdir. İctimai maraq fərdi maraq anlayışı ilə əlaqələndirilməməlidir. Çünki ictimai maraqları tənzimləyən və müdafiə edən məhz dövlətdir. Müxtəlif ictimai birliklər, qeyri-hökumət təşkilatları hüquqi imkanlarla ictimai maraqların müdafiə edilməsini gerçəkləşdirirlər. Buraya ictimai və dövlət maraqlarının müxtəlif aspektlərinə dair hüquqi bazanın təkmilləşdirilməsi, monitorinqi və digər məsələlər daxildir.

**Milli maraqlar uğurla təmin edilib**

“Bakı Qeyri-Hökumət Təşkilatlarının Resurs və Təlim Mərkəzi” İctimai Birliyinin (BQRTM) sədri Rauf Zeyni mövzuya dair fikirlərini “Yeni Azərbaycan”la bölüşüb. Onun sözlərinə görə, ölkəmizdə ictimai və dövlət maraqlarının müdafiəsindən danışarkən, köklü modernləşməyə xüsusi diqqət edilməlidir. Eyni zamanda, demokratikləşmə sahəsində əldə olunan nailiyyətləri qeyd etməmək olmaz: “Bu gün islahatların gedişi barədə əhalinin və dünya ictimaiyyətinin geniş şəkildə məlumatlandırılması və onların həyata keçirilməsinə ictimai nəzarətin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Transformasiyaların səmərəliliyinin açarı vətəndaşların dövlətin və cəmiyyətin inkişaf proseslərində fəal iştirakıdır. Son illər bu unikal mexanizm vasitəsilə müxtəlif istiqamətlər üzrə vətəndaşlardan çoxsaylı müraciət daxil olub və onlar müvafiq qaydada hökumət tərəfindən cavablandırılıb. Bunlar insan hüquq və azadlıqlarına riayət və hörmətə, ümumi təhlükəsizlik təhdidlərinə yeni yanaşmalara, milli qanunvericiliyə beynəlxalq standartların tətbiqinə gətirib çıxarıb. Eyni zamanda, o da mühümdür ki, ölkənin siyasi müstəqilliyinin formalaşması və inkişafı şəraitində obyektiv olaraq milli kimliyin formalaşması da uğurla həyata keçib. Bu zaman milli maraqlar məsələsi də uğurla təmin edilib”.

**Dövlət maraqlarının müdafiəsində kompleks zəmin**

BQRTM sədri qeyd edib ki, ölkə başçısı dayanıqlı tərəqqi məqsədlərinə nail olmaq, vətəndaş cəmiyyəti institutlarının inkişafını və söz azadlığının dəstəklənməsini prioritet olaraq müəyyən edib: “Prezident əhalinin rifah halının yüksəldilməsi, sosial sferanın, elmin və innovasiyanın təkmilləşdirilməsini də qarşıya məqsəd qoyub. Bunlar həm də Azərbaycanın demokratiya yolu ilə irəliləməsinə şərait yaradır. Eyni zamanda, bütün bunlar ictimai və dövlət maraqlarının müdafiəsinə kompleks zəmin yaradır. Azərbaycanda insan hüquqlarının müdafiəsi sülhün və təhlükəsizliyin, sabitliyin möhkəmləndirilməsi, davamlı inkişafın təmin edilməsi sahəsində dövlət siyasətinin əsas prioriteti hesab olunur. Burada məqsəd hər bir insanın əsas hüquq və azadlıqlarını, sağlamlığını və rifahını təmin edəcək ədalətli qlobal sistemi birgə formalaşdırmaqdır. Burada mühüm məqamlardan biri də odur ki, ölkəmizdə millətlərarası harmoniyanın və konfessiyalararası tolerantlığın daha da möhkəmləndirilməsi prinsipi real məzmuna malikdir. Məhkəmə hakimiyyətinin həqiqi müstəqilliyinin və qanunun aliliyinin təmin edilməsinə yönəlmiş genişmiqyaslı islahatların ardıcıl surətdə həyata keçirilməsi də cəmiyyəti daha güclü hala gətirir və beləliklə, onun marağını təmin edir”.

**Maariflənmənin aparılması da vacibdir**

R.Zeyninin sözlərinə görə, hər bir müasir dövlətdə olduğu kimi, Azərbaycanda da vətəndaş cəmiyyətinin əsasını müstəqil ictimai təşkilatlar təşkil edir: “Bu gün onlar əhaliyə sosial xidmət göstərir, ictimai maraqların təmin edilməsinə şərait yaradır, sosial əhəmiyyətli fəaliyyətlə məşğul olur, insan hüquqlarını qoruyur, yerli əhəmiyyətli məsələləri həll edir. Onlar ictimai nəzarət mexanizmləri vasitəsilə dövlət orqanlarının şəffaflığını və səmərəliliyini təmin etməyə kömək edir. Bununla yanaşı, respublikada QHT-lərin formalaşması və inkişafı üçün təşkilati, hüquqi və maddi şəraitin yaradılması istiqamətində bir sıra tədbirlər həyata keçirilir. Aparılan genişmiqyaslı islahatlar insanların dünyagörüşünü, həyat tərzini müsbətə doğru dəyişir.

Şübhəsiz ki, ictimai və dövlət maraqlarının qorunması istiqamətində maariflənmənin aparılması da vacib şərtdir. Əlbəttə ki, vətənpərvərlik ideologiyasının gənclər arasında təbliğatı olduqca önəmlidir və bu istiqamətdə ölkəmizdə görülən işlər başadüşülən, eləcə də təqdirəlayiqdir”.

*Yeganə BAYRAMOVA*

# Yox olan televiziyalar...

Hərdən nənələrimizin, babalarımızın televizorla ilk tanış olduqları anları, valideynlərimizin cəmi bir televiziya kanalı varkən onu izləmək üçün keçirdikləri həyəcanı dinləyəndə qəribə hisslər yaşayıram. Zamanında insanlar televizoru bu qədər önəmsəmişkən, bizim nəsillərin televizora qarşı laqeydliyimiz incidir, nə gizlədim. Yox, bu, təkcə sürətlə inkişaf edən, dəyişən zamandan, bütün dünyanı ovcumuza sığdıran telefonun və internetin icadından asılı deyil. Buna səbəb həm də hər şey bu qədər inkişaf edərkən yerli televiziya kanallarımızın gün keçdikcə bəsitləşməsi, hətta iflasıdır. İldə neçə dəfə neçə internet kanalları, qəzet və saytlar yerli əhali arasında sorğu keçirir: “televizora baxırsınızmı, hansı yerli kanalları bəyənirsiniz?” Cavab nə olur? Birmənalı şəkildə, 70-80 faiz insan- xüsusən, gənclər televiziya kanallarını izləmirlər. Dərindən düşünəndə izləməyə nə var ki?

Xatırlayıram, 15-20 il öncə yerli kanallarımız bir-birindən maraqlı intellektual verilişlər, səviyyəli müzakirələr hazırlayır, demək olar ki, hər təbəqəyə, hər yaşa xitab edən proqramlarla tamaşaçı qarşısına çıxardılar. Hər axşam yayımlanan intellektual verilişləri necə həvəslə, həsədlə gözlədiyimiz indiki kimi yadımdadır. Lazımlı informasiya ilə bol verilişlər, şou-proqramların zövqlə hazırlanması, dəvət olunan sənətçilərin ürəyəyatımlı ifası, çəkişmələrin də bəlli səviyyələrdə aparılması indidən dönüb baxanda necə də əlçatmaz və çox uzaq keçmiş kimi gəlir. Halbuki, indi elm, texnika dəfələrlə çox inkişaf edib, bütün kanallar ən müasir təchizata malikdir. Bəs, onda indi insanları televizordan uzaq salan nədir?

Əlbəttə ki, səviyyə, daha doğrusu, səviyyəsizlik. Nə yazıq ki, indi kanallarımız reytinq xətrinə, bir-birinin bəhsinə ən səviyyəsiz, ən mənasız insanlar, mövzular və verilişlərlə zəbt edilib. Səsi, musiqidən anlayışı olmayan müğənnilər, danışığını bilməyən aparıcılar, ucuz şoular, biyabırçı zarafatlar günümüz ekranlarını işğal edib. Bu gün televiziya özünün öyrədicilik, düşündürücülük funksiyasını tamamilə unudub, yalnız əyləncəyə köklənib ki, onu da ən bəsit, ən iyrənc şəkildə təqdim etməkdən sanki zövq alırlar.

Qısa ömründə neçə dəfə nikah masasına oturduğunu unudanlar, kimsəyə örnək ola bilməyəcək qədər rəzil həyat yaşayanlar verilişlərdə ekspert olub, insanlara məsləhətlər verir, özlüyündə səhvi düzdən ayırır, yol göstərir. İnsanların yataq otağı, məhrəmi gündəm mövzusuna çevrilib, hər kəs bir-birini intim həyatından vurmağa çalışır. “Dörd divar” deyilən anlayışın yerini mavi ekran tutub. İndi heç dörd divar arasında belə danışılmayacaq qədər məhrəm olan mövzular çox rahatlıqla mavi ekranlarda müzakirə edilir, müasirlik, demokratiya adı ilə insanlara sırınır.

Azərbaycan estradasını, musiqisini öldürüb “halvasını yeyənlər” göstərəcək sənətləri olmadığından bədənlərinin şəkilləri, dırnaqlarının uzunluğu, estetik əməliyyatlarının sayı ilə öyünürlər. Kanallarımız da onlara böyük məmnuniyyətlə zaman ayırır, cəmiyyətdə məşhurlaşmaqları üçün hər cür imkanı yaradırlar. Səbəb nədir? Səbəb kanal rəhbərlərinin ekrana çıxardıqları hər bu cür “sənətçilərdən”, “eskpertlərdən” aldığı külli miqdarda pullar. Yəni hər yerdə olduğu kimi maddiyat...

Bunca xaosun, özbaşınalığın içərisində yenə də öz səviyyəsini qoruyan, cəmiyyətə və mədəniyyətimizə xidmət edən Azərbaycan Dövlət Televiziyası və “Mədəniyyət” kanalı var ki, nə yazıq, o da reytinqdə digərlərinə uduzur.

Bəs bunu edən, onlara reytinqi qazandıran kimlərdir? Xalq? Əsla! Azərbaycan xalqı bu səviyyəsizliyə, bəsitliyə yiyə duracaq intellektə, dəyərdə deyil. Çünki bizim köklü milli-mənəvi dəyərlərimiz və bu dəyərlərə bağlılığımız var. Bu reytinqi qazandıran müəyyən kütlədir ki, bütün bu çirkinliklər də məhz onun üçün hesablanıb. O kütlə ki, ona ağ versən ağı, qara versən qaranı qəbul edəcək. Axı niyə israrla qaranı verirlər?!



*Şahanə MÜŞFİQ*

## *İdman*

## Azərbaycanın bədii gimnastları beynəlxalq turnirdə çıxış edəcəklər



Azərbaycanın bədii gimnastları San-Marino Respublikasının Serravalle şəhərində keçiriləcək “San Marino Cup” yarışında iştirak edəcəklər.

Azərbaycan Gimnastika Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, turnirdə məşqçilər Ukleina Valentina və ?Ruslan Eyvazovun rəhbərliyi ilə böyüklərdən İlona Zeynalova, gənclərdən isə Şəms Ağahüseynova çıxış edəcəklər.




Yarışda ölkəmizi hakimlər arasında Aysel Həsənova təmsil edəcək.

“San Marino Cup” yarışı sentyabr 7-8-də baş tutacaq.

## “Qarabağ”ın U-16 komandası İtaliyada keçiriləcək turnirdə iştirak edəcək




“Qarabağ”ın 16 yaşadək futbolçulardan ibarət komandası İtaliyada keçiriləcək beynəlxalq turnirdə iştirak edəcək.

Klubdan AZƏRTAC-a verilən məlumata görə, Neapol şəhərində təşkil olunacaq “Blue Devils Cup” yarışında 24 komanda mübarizə aparacaq. İştirakçılar arasında “Yuventus”, “Napoli”, “Roma”, “Fiorentina” (hamısı İtaliya), “Dinamo” (Zaqreb) kimi komandalar da var.

C qrupunda yer alan Ağdam təmsilçisi sentyabrın 6-da “Tor Tre Teste”, ardınca “Benevento” ilə görüşəcək. Ertəsi gün rəqib “Sanseverines” olacaq.

Qrup qalibləri və ikinci yer sahiblərindən ən yaxşı nəticəyə malik iki komanda 1/4 finala yüksələcək. Digər iştirakçılar isə aşağı pillələr uğrunda mübarizəni davam etdirəcək.

Turnirə sentyabrın 8-də yekun vurulacaq.

## Avropa çempionatı: Azərbaycanın üç cüdoçusu finala yüksəlib

Azərbaycanın üç gənc cüdoçusu Estoniyanın paytaxtı Tallində keçirilən Avropa çempionatında finala vəsiqə qazanıb.

“Report”un məlumatına görə, bunlar Nizami İmranov (60 kq), Könül Əliyeva (52 kq) və Fidan Əlizadədir (57 kq).

Fidan Mirzəyeva (48 kq), Xədicə Qədəşova (52 kq) və Fidan Qasımova (57 kq) yarışı medalsız başa vurublar.

Qeyd edək ki, Avropa çempionatı sentyabrın 8-də başa çatacaq.





# Azercell yeni tədris ili münasibətilə “HONOR+SuperSən” kampaniyasına start verir!

## HONOR cihazlarını əldə edən abunəçilərə “SuperSən” tarif paketlərinə 50% endirim




Yeni tədris ilində Honor smartfonları və “SuperSən” tarif paketi daha əlçatandır! Qarşıdan gələn tədris ilində abunəçilərini daha da sərfəli internet və danışıq xidmətləri ilə təmin etməyi hədəfləyən “Azercell Telekom” MMC yeni kampaniyaya start verir.

Xüsusi təklifə əsasən HONOR smartfon və ya planşetini Azercell-in satış mərkəzlərindən 229 AZN-dən başlayan qiymətlərlə alan abunəçilər, 6 ay müddətinə “SuperSən 6GB”, “SuperSən 10GB”, “SuperSən 20GB” və ya “SuperSən 30GB” tarif paketlərinə 50% endirim əldə edəcəklər. Tarif paketini aktivləşdirmək üçün müvafiq açar sözünü 7575 qısa nömrəsinə göndərmək kifayətdir. Tarifi USSD kod və ya “Azercell” tətbiqi vasitəsilə də aktivləşdirmək olar. Qeyd edək ki, “SuperSən” paketləri 6 aylıq endirim müddətindən sonra avtomatik şəkildə standart qiymətlərlə yenilənəcək.

Kampaniyadan 30.09.2024-cü il tarixinədək yararlanmaq olar. Daha ətraflı məlumat üçün bit.ly/acell_honor_az səhifəsinə keçid etməyiniz xahiş olunur.

Azercell-in yeni kampaniyasından yararlan və qarşıdan gələn tədris ilinə tam hazır ol!



Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4898
Sifariş: 2029
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli